Günəş Şərqdən doğur!

№ 73 (5354), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 27 aprel 2021-ci il (çərşənbə axşamı)

## Əməkdar artist Baloğlan Əşrəfov vəfat edib

**Əməkdar artist Baloğlan Əşrəfov vəfat edib.**

Bu barədə APA-ya şair Vüqar Əhməd məlumat verib.

O, B.Əşrəfovun bir saat əvvəl vəfat etdiyini deyib: "Təcəli yardım gəlsə də həyatını xilas etmək mümkün olmayıb. Sabah səhər Masallıya aparılacaq, orada anasının yanında dəfn olunacaq".

*Qeyd edək ki, 70 yaşlı müğənni koronavirusa (COVID-19) yoluxmuş, ev şəraitində müalicə alırdı.*



### Günün içindən...



## Zəngilandan Naxçıvana avtomobil yolu salınacaq

Prezidenti və Mehriban Əliyeva Cəbrayıl və Zəngilan rayonlarında olublar

Dünən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva Cəbrayıl və Zəngilan rayonlarında olublar.

(səh.2)

## "Qardaşım İlham Əliyevlə telefon danışığımız oldu"



Türkiyə Prezidenti: "Önümüzdəki günlərdə atacağımız addımları daha da konkretləşdirəcəyik"

(səh.3)

# Ərdoğandan sərt təpki





## "Cənab Bayden, Qarabağda törədilən cinayət əməlləri ortadadır"

"Qarabağda Azərbaycan torpaqlarında otuz il əvvəl törədilənlər ortada olduğu halda problemin həlli üçün ABŞ, Rusiya və Fransanın təmsilçiliyi ilə yaradılan Minsk qrupu heç bir iş görmədi, cənab Bayden. Oradakı insanların torpaqlarını işğaldan qurtarmadınız".

(səh.2)

## Qırmızı xətti aşırlar

Düşmənin bütün tör-töküntüləri Qarabağdan təmizlənməlidir

(səh.3)



## Baydenin böhtanını şiddətlə qınayırıq!

"Türk Ocaqları" bəyanat yayıb

(səh.2)

## Səhiyyə Nazirliyindəki rəhbər şəxslər də həbs olunmalı idi

(səh.4)

## Bakı rus qoşunlarının Azərbaycandan çıxarılmasını tələb etməlidir

(səh.6)

## Daha 806 nəfər koronavirusa yoluxub

31 nəfər vəfat edib, 1224 nəfər müalicə olunaraq sağalıb

(səh.9)

## Hər kəs Qarabağ havasındadır



Keçmiş köçkünlər yurdlarına qayıtmağın sevincini yaşayır

(səh.9)

## Həbs dalğası genişlənir

Əhalinin malına, puluna, kartına göz dikmək olmaz



(səh.7)

# Zəngilandan Naxçıvana avtomobil yolu salınacaq








## Prezidenti və Mehriban Əliyeva Cəbrayıl və Zəngilan rayonlarında olublar

**Dünən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva Cəbrayıl və Zəngilan rayonlarında olublar.**

Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində azad olunmuş ərazilərə səfərdən görüntülər paylaşıb.

**Dövlət başçısı Cəbrayıl rayonunda olarkən bildirib:**

"Vaxtilə Cəbrayıl rayonunun girişində ucaldılmış lövhəni biz yenidən bərpa etdik. Sovet vaxtında bu lövhə qoyulmuşdu. İşğal dövründə tamamilə sökülmüş, paslanmışdır. Tarixi ədaləti bərpa edərək Cəbrayıl rayonun girişində yerləşən "Xoş Gəlmisiniz" lövhəsini bərpa etdik"

Aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva Zəngilan rayonunda da olublar.

Dövlət başçısı Zəngilan rayonunda isə bunları deyib:

"Zəngilan rayonu coğrafi baxımdan şərqi Zəngəzur mahalında yerləşir. Şərqi Zəngəzuru qərbi Zəngəzurla birləşdirib Naxçıvana dəmir yolu, həmçinin avtomobil yolu açacayıq.

Əsas məsələ odur ki, şəhərlər, kəndlər bərpa olunarkən təbiətə toxunulmasın, təbiətə ziyan vurulmasın. Ermənilər bizim təbiətimizə də qəsd etdilər. 54 min hektar meşə zolaqlarını məhv etdilər, kəsib aparıb satdılar".

Dövlət başçısı hərbçilər üçün nəzərdə tutulmuş idman kompleksində çəki daşlarını qaldırıb. İlham Əliyev əvvəlcə hərəsi 15 kq, daha sonra isə 20 kq olan çəki daşları ilə idman edib.

**Dövlət başçısı bildirib:** "Göstərirəm ki, şəxsi heyət mənim kimi idmanla məşğul olsun"

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonun Ağalı kəndində "Ağıllı kənd" layihəsinin təməlqoyma mərasimində də iştirak edib.



## Ərdoğandan sərt təpki

### "Cənab Bayden, Qarabağda törədilən cinayət əməlləri ortadadır"

**"Qarabağda Azərbaycan torpaqlarında otuz il əvvəl törədilənlər ortada olduğu halda problemin həlli üçün ABŞ, Rusiya və Fransanın təmsilçiliyi ilə yaradılan Minsk qrupu heç bir iş görmədi, cənab Bayden. Oradakı insanların torpaqlarını işğaldan qurtarmadınız".**

Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nazirlər Kabinetinin növbəti iclasından sonra keçirilən mətbuat konfransında ABŞ Prezidenti Co Baydenin saxta "soyqırım" ifadəsinə mövqe bildirərkən deyib.

**Türkiyə Prezidenti bildirib ki, Azərbaycan torpaqlarının işğalı nəticəsində bir milyondan çox azərbaycanlı öz yurdundan didərgin düşüb:** "Həmin bölgədə bütün yaşayış məskənləri, tarixi abidələr ermənilər tərəfindən dağıdılıb, yandırılıb. Orada ermənilər müharibə cinayətləri törədiblər. Əgər soyqırım deyirsinizsə, bunlara baxacaqsınız. Sizin qırmızıdərililəri necə qətlə yetirdiyinizi zatən deмirik, bu tarixi fakt ortadadır. Bütün bu həqiqətlər varkən, türk millətini soyqırımla ittiham etməyə haqqınız yoxdur". (APA)

*Ərdoğan əlavə edib ki, ermənilər həm də əsr yarımdan bəri mütəmadi törətdikləri terror əməllərini ört-basdır etmək üçün hər il "soyqırım" yalanını ortaya atır:* "Böyük vədlərlə ruslar, Avropa və Amerika tərəfindən aldadılan ermənilər həm də utanclarından "soyqırım" məsələsini ortaya atırlar".



## Zelenski Putinlə görüşə hazırlaşdığını bildirib

**Ukrayna Prezidenti Vladimir Zelenski rusiyalı həmkarı Vladimir Putinlə görüşə hazırlaşdığını bildirib.**

APA-nın RİA "Novosti"yə istinadən verdiyi xəbərə görə, Ukrayna Prezidenti qeyd edib ki, o, artıq ofisinin rəhbəri Andrey Yermaka görüşün təşkili ilə bağlı göstəriş verib.

"Mənə elə gəlir ki, hər şey bu görüşün baş tutacağı istiqamətdə gedir. Donbassda görüşməyi həqiqətən təklif etmişəm və siz bunu eşitmisiniz. Rusiya Prezidenti görüşmək istədiyini təsdiqləyib, amma o, Moskvada görüşməyi təklif edib. Artıq prezident ofisinin rəhbəri Andrey Yermaka tapşırıq vermişəm ki, Prezident Putinin administrasiyasına müraciət etsin və vaxt, görüşə biləcəyimiz yer və ya şəhər barədə qarşılıqlı anlaşmaya gəlsinlər. İnanıram ki, əsas məsələ mahiyyətdir. Harada və nə vaxt - bunlar artıq təfərrüatdır", - deyə Ukrayna Prezidenti Çernobılda çıxışı zamanı qeyd edib.

# Baydenin böhtanını şiddətlə qınayırıq!

## "Türk Ocaqları" bəyanat yayıb

**"Türk Ocaqları Genel Merkezi" ABŞ prezidenti Co Baydenin 1915-ci il hadisələri haqqında böhtanlarını şiddətlə qınayıb.**

*"Şərq"in xəbərinə görə Mərkəzin yaydığı bəyanat mətnində deyilir:*

İllərdir "Erməni soyqırımı" yalanını "Demoklun qılıncı" kimi başımızın üstündə tutan ABŞ prezidentləri bir neçə ildir Ermənistanın təbirincə, "Böyük fəlakət" dedikləri 1915-ci il hadisələrini bu dəfə yeni dövlət başçısı Co Bayden "soyqırımı" kimi dəyərləndirdi. Türk Ocaqları olaraq bildiririk ki, Türk millətinin 1915-ci ildəkə əməliyyatı düşmənlə əməkdaşlıq edən qüvvələrə qarşı müdafiə tədbiri idi.

Anadolu torpaqlarında doqquz əsr ərzində hakimiyyəti altındakı fərqli etnik və dini qruplarla birgə sülh və sabitliyi təmin etmiş Səlçuqlu, Bəylikli və Osmanlı təcrübələrinin memarı türk millətidir. XIX əsrdən etibarən Balkanlarla və qeyri-müsəlman cəmiyyətlərdə başlayan separatizm sonradan müsəlmanlara və Asiya torpaqlarına da gəlib. Bu mənada XIX əsrin son rübündə erməni terrorçuları imperialist qüvvələrlə birgə türk millətinə qarşı hərəkət ediblər. Birinci dünya müharibəsinin əvvəllərində Qars və Ərdahan bölgələrində qətliamlar törədən, sonra Vanda böyük bir üsyan çıxaran və ruslarla iş birliyinə girən ermənilər böyük bir qətliam törətdilər. 1915-ci ildə Türk milləti Çanaqqala da daxil, bir neçə cəbhədə ölüm-dirim savaşı apararkən ordumuz arxadan xəncərləndi. Bununla əlaqədar olaraq müdafiə qərarı alındı.

Türk Ocaqları olaraq Yüz minlərlə türkün qətl edilməsini görməyən Xaçlı zehniyyətinin tarixi həqiqətləri və beynəlxalq hüquqda soyqırımı cinayətinin mahiyyət və məzmununu görməzdən gələrək Türk millətinə qarşı soyqırımı böhtanını rədd edirik. ABŞ prezidenti Co Baydenin 1915-ci hadisələrini "Erməni soyqırımı" adlandırması nə dostluqla, nə də müttəfiqliklə uzlaşır. Bu bəyanatı şiddətlə qınayırıq. Soyqırımlarla qurulmuş bir dövlət olan və guya demokratiya gətirmək üçün regionumuzu qan gölünə çevirən, yüz minlərlə günahsızın qanına girən ABŞ-ın kiməsə və xüsusilə Türkiyəyə insanlıq dərsi vermək haqqı yoxdur. İraqda və Suriyanın şimalında PKK terrorçularını dəstəkləyən "müttəfiqin" son açıqlaması bizi təəccübləndirmədi. Türk milləti və Türk dövləti olaraq daxildəki müxtəlifliyi bir qırağa qoymalıyıq. Türk millətinə soyqırım böhtanı atan ABŞ daxil hər kəsə lazımi cavab verilməlidir.

**Kənan Novruzov**

# Qırmızı xətti aşırlar

## Düşmənin bütün tör-töküntüləri Qarabağdan təmizlənməlidir



### Azərbaycana antiterror əməliyyatlarına başlamaqdan başqa yol qoymurlar

Noyabr ayında imzalanmış üçtərəfli bəyanatın 4-cü bəndinə görə, Ermənistanın heç bir silahlı qüvvəsi Qarabağda qalmamalı idi. Qarabağda müddətli hərbi xidmət keçən erməni əsgərlərin valideynləri Ermənistanın hökumət binasının qarşısında yenidən aksiya keçiriblər.

Azərbaycanda xidmət edən hərbçilərin valideynləri oğlanlarının erkən tərxis edilməsini tələb edirlər. Bu faktlar bir daha göstərir ki, Ermənistan razılaşmaya əməl etmir, əsgərlərini hələ də Xankəndi və ətraf bölgələrdə saxlamaqda davam edir.

Rusiya sülhməramlılarının təsir zonasında olan erməni silahlıları "arxalı köpək qurd basar" yanaşmasına istinad edərək həyasız davranışlarını davam etdirirlər. Qarabağdakı qondarma rejimin terrorçu nümayəndələri hələ də reallığı qəbul edib, Azərbaycan dövləti içərisində "dövlət" qurmağın mümkünlüyünü anlamaq istəmirlər. Günün birində Azərbaycanın müvafiq qurumlarının antiterror əməliyyatı keçirərək terrorun kökünü qazıyacağı getdikcə daha real görünür.

**Millət vəkili Elman Məmmədov "Şərq"ə açıqlamasında bildirib ki, erməni əsgərlərinin Xankəndidə olması Azərbaycan qanunlarının ciddi şəkildə pozulmasıdır:** "Xankəndi və onun ətrafında, Xocalı və Xocavənd rayonunun bir hissəsi və keçmiş Ağdərə rayonunda qondarma rejimə aid terror dəstələri fəaliyyətlərini davam etdirirlər.

Müharibə bitən gündən üçtərəfli bəyanata əsasən sülhməramlılıq missiyasını öhdəsinə götürən Rusiya dövləti bu işlə ciddi məşğul olmalı və ərazilərimiz bir neçə ay müddətinə terrorçu dəstələrdən təmizlənməlidir.

Təəssüf ki, Rusiya dövlətinə aid olan sülhməramlılar daha çox erməni-məramlıdırlar.

Quldur erməni dəstələri ilə bir növ əməkdaşlıq edib onları himayələri altında saxlayırlar. Laçın dəhlizi vasitəsilə onları silah-sursat və ərzaqla təmin edirlər. Rus sülhməramlılar öz missiyalarına aid olmayan hər şeyi edirlər".

**"Belə olan təqdirdə Azərbaycan nə etməlidir" sualına gəlincə, parlament üzvü bildirib ki, ölkəmizi antiterror əməliyyatına yerinə yetirməyə məcbur edirlər:** "Rusiya istəyir ki, Azərbaycan məcbur olub öz ərazisində antiterror əməliyyatları keçirsin. Lakin bu, bizim hüququmuzdur. Rusiya vaxtaşırı olaraq Şimali Qafqazda antiterror əməliyyatları keçirir ki, "ərazilərimdə qeyri-qanuni birləşmələr var.

Onları tərkisilah etmək üçün tədbir görürəm". Eyni hüquq bizə də aiddir. Xankəndi Azərbaycan ərazisidir.

Torpaqlarımızı işğaldan azad etmişik. Sadəcə, müəyyən bir hissə və Laçın dəhlizi qalıb. Laçın dəhlizi rus sülhməramlıların ixtiyarına verilməyib ki, kim istəsə gəlib-getsin və Azərbaycandan soruşmasınlar.

O zaman rus sülhməramlılar nə üçün lazımdır? Müharibə 5 aydan çoxdur ki, bitib. Bu müddət ərzində erməni terrorçuları həbs edilməyib və rahat şəkildə fəaliyyət göstərirlər. Onlara rəhbərlik edən qondarma rejimin də bütün strukturları ruslarla sıx əməkdaşlıq edirlər.

Azərbaycan buna son qoymaq üçün ərazisini antiterror əməliyyatları ilə düşmənin bütün tör-töküntülərindən təmizləməlidir. Başqa yol yoxdur!".

**Yeganə Bayramova**



## "Qardaşım İlham Əliyevlə telefon danışığımız oldu"

### Türkiyə Prezidenti: "Önümüzdəki günlərdə atacağımız addımları daha da konkretləşdirəcəyik"

**"Azərbaycan Prezidenti, qardaşım İlham Əliyevlə də Ermənistanla imzalanan razılaşmaların həyata keçirilməsi və son proseslər çərçivəsində atıla biləcək ortaq addımlarla bağlı bir telefon danışığımız oldu".**

APA-nın yerli bürosunun məlumatına görə, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nazirlər Kabinetinin növbəti iclasından sonra keçirilən mətbuat konfransında bildirib.

Ərdoğan deyib ki, illərdir ki, çözümsüzlüyü çözüm kimi təqdim edənlərə ən gözəl cavabı Azərbaycanla birlikdə Qarabağda verdiyimizi bilirsiniz: **"Önümüzdəki günlərdə bu çərçivədə atacağımız addımları daha da konkretləşdirəcəyik".**

## Putin və Makron Qarabağı müzakirə ediblər

**Rusiya prezidenti Vladimir Putin və Fransa prezidenti Emmanuel Makron arasında telefon danışığı olub.**

Trend-in Kremlin saytına istinadən verdiyi məlumata görə, telefon danışığı zamanı tərəflər Dağlıq Qarabağ ətrafındakı vəziyyəti müzakirə ediblər:

"Vəziyyətin sabit olduğu, Rusiya və Azərbaycan Prezidentlərinin və Ermənistan baş nazirinin 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli Dağlıq Qarabağla bağlı bəyanatlarının icrası ilə bağlı işlərin planauyğun davam etdirildiyi məmnuniyyətlə qeyd edilib. ATƏT-in Minsk qrupu da daxil olmaqla, Dağlıq Qarabağ nizamlanmasının müxtəlif aspektləri üzrə əməkdaşlıq etməyə qarşılıqlı hazırlıq ifadə edilib".

## Onların əlində xəritə var

### Ona görə rus və ermənilər arasında minaya düşənlərin sayı dəfələrlə azdır



**Rusiyanın iki sülhməramlısı Qarabağda yaralanıb. Bu barədə "Hərbi müşahidəçi" teleqram-kanalı məlumat yayıb. Qeyd edilir ki, sülhməramlılar onları daşıyan "Ural" markalı avtomobilin minaya düşməsi nəticəsində yaralanıblar. Hadisə hələlik rəsmən təsdiqlənməyib.**

Lakin olayda təəccüblü məqamlar heç də az deyil. Necə olur ki, minaya düşən azərbaycanlı hərbçilər şəhid olurlar, ruslar isə yaralanır. Hələ say fərqini demirəm... Silahların haralarda basdırılması, həqiqətən, bütün tərəflər üçün naməlumdursa, niyə minaya düşən azərbaycanlılar rus və ermənilərdən dəfələrlə çoxdur?!

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Şərq"ə açıqlamasında sözügedən mümməalı məsələyə münasibət bildirdi:** "Kreml minalı ərazilərin xəritəsi ilə bağı açıqlama vermir. Nə həmin istiqamətdə danışıqların getdiyini deyir, nə də xəritələrin olmadığını bildirir. Hərçənd ikinci variant inandırıcı deyil. Xəritə var ki, rus və ermənilər arasında minaya düşənlərin sayı dəfələrlə azdır. Bu, sadəcə "gözə kül üfürməkdir". Minanı basdıranların özləri təhlükəsiz zonanı bilirlər. İkinci bir tərəfdən, ola bilsin, xəritəyə bütün minalar düşməyib. Yəni hansısa minanın xeyli əvvəllər basdırıldığı və unudulduğu istisna deyil. Rus hərbçilərinin yaralanması, həlak olmaması isə onu deməyə əsas verir ki, həmin minalar o qədər də təhlükəli deyilmiş. Ümumiyyətlə, Rusiya adətən bütün hadisələrə reaksiya verdiyi halda indi səssizliyini qoruyur. Deməli, gizlətdiyi nələrsə var və "İsgəndər" raketi ilə bağlı olduğu kimi yenə nağıl danışmaq istəyir".

**Kənan**

# Bayden eyni ifadəni hər il işlədəcək

### Bununla da ABŞ regionda müstəsna rolunu itirəcək

ABŞ-ın Ankaradakı səfiri David Satterfild Türkiyənin Xarici İşlər Nazirliyinə çağırılıb. Bu barədə Türkiyə XİN məlumat yayıb. Məlumatda vurğulanıb ki, nazir müavini Sedat Önalın qəbul etdiyi ABŞ səfirinə Prezident Baydenin "erməni soyqırımı" bəyanatı qınanılıb və rədd edilib.



### Minsk qrupunun üzvü olmasına rəğmən, Vaşinqton daha "ofsayt"dadır

Bəyanatın beynəlxalq hüquq baxımından qanunsuz olduğu səfirin diqqətinə çatdırılıb. Bu açıqlamanın Türkiyə xalqını təsirləndirdiyi və Türkiyə-ABŞ əlaqələrinə dərin yara vurduğu bildirilib.

Politoloq İlqar Vəlizadə rəsmi Vaşinqtonun tarixi təhrif etməsi haqqında "Şərq"ə danışdı: "Etiraf etməliyik ki, bu, ilk hal deyil. Bəzi dövlətlər də fərqli vaxtlarda oxşar bəyanatlar səsləndiriblər və həmin açıqlamaların hər biri arxivə gedib. Başqa sözlə desək, bu məsələ zaman-zaman gündəmə gətirilib, sonra da unudulub. Baydenin bundan sonra hər il eyni fikri təkrarlayacağını bilməliyik. Bu isə türkləri ittiham etmək deməkdir.

Və biz həmin açıqlamaları təhqir kimi qiymətləndirməliyik. Əsas sual budur ki, Bayden niyə həqiqi soyqırımları tanımır, nə üçün Azərbaycanın və Türkiyənin başına gətirilənləri unudur?!

Nə üçün biz ittiham olunuruq?! Əlbəttə, rəsmi Vaşinqtonun açıqlaması münasibətlərə müsbət təsir göstərməyəcək, əksinə, pisləşdirəcək. Lakin ünsiyyətin tamamilə kəsiləcəyini də düşünmürəm. Düzdür, ABŞ regiondakı müstəsna rolunu itirəcək, amma Türkiyə ilə müəyyən əlaqələr davam edəcək".

**İ.Vəlizadənin fikrincə, məlum açıqlama rəsmi Vaşinqton üçün baha başa gələcək:** "ABŞ-ın regiondakı nüfuzunun aşağı düşəcəyi şübhəsizdir. "Müqəddəs yer boş qalmır" prinsipi ilə Rusiya və ya Çin regiondakı boşluğu doldurmağa, mövcud vəziyyətdən öz xeyirlərinə istifadə etməyə çalışacaqlar.

Ankara ilə Moskva arasındakı əlaqələr daha da sıxlaşacaq. Azərbaycan-Türkiyə-Rusiya üçbucağı bu fikrin göstəricisidir. ABŞ isə regionda "oyundankənar" vəziyyətdə qalacaq.

Hətta regiondakı maraqlarına, Minsk qrupunun üzvü olmasına rəğmən, Vaşinqton daha "ofsayt"dadır. Əgər bu onu qane edirsə, özü bilər, öz işidir".

**Kənan**

# Səhiyyə Nazirliyindəki rəhbər şəxslər də həbs olunmalı idi




## Həbs olunan şəxslər koronavirus və çarəsiz xəstələrə qarşı vəzifələrindən sui-istifadə ediblər, lakin onlar sadəcə icraçıdırlar

Onlara sərf etmirdi ki, əhali icbari tibbi sığortadan lazımi səviyyədə istifadə etsin

**Yanvarın 1-dən etibarən ölkəmizdə "Tibbi sığorta haqqında" qanuna əsasən, icbari tibbi sığorta haqlarının toplanılmasına başlanılıb. Bu gün bəlkə də vətəndaşları ən çox maraqlandıran sual icbari tibbi sığortanın necə və hansı əsaslarla həyata keçirilməsidir.**

Lakin bu sahədə qeyri-müəyyənlik hökm sürür. Əhalinin demək olar ki, hamısı icbari tibbi sığortanın hansı formada həyata keçirilmə mexanizmindən xəbərsizdir.

Təbii ki, əsas səbəb vətəndaşların bu sahədə bilgisiz olmasıdır. Aidiyyəti qurumlar əhaliyə icbari tibbi sığorta haqqında dolğun məlumat verməli idilər. Lakin mövcud durum ürəkaçan deyil.

**Mövzu barədə "Şərq"ə açıqlama verən tibb elmləri doktoru, professor-həkim Adil Qeybulla icbari tibbi sığorta sistemindəki qeyri-müəyyənliyi mənfi qiymətləndirib:** "Məhz bu qeyri-müəyyənlik olub ki, son günlər səhiyyə işçilərinin həbsinə şahidik. Həbs olunan şəxslər koronavirus və çarəsiz xəstələrə qarşı vəzifələrindən sui-istifadə ediblər. Lakin onlar sadəcə icraçıdırlar. Bu işin başında dayanan himayədarlar var. İlk növbədə Səhiyyə Nazirliyindəki rəhbər şəxslər həbs olunmalı idi.

Onlara sərf etmirdi ki, əhali icbari tibbi sığortadan lazımi səviyyədə istifadə etsin.

İcbari tibbi sığorta başlayıb və gərək müvafiq qurumlar mütəmadi olaraq vətəndaşlar arasında maarifləndirici iş görsünlər.

İnsanlara aydın olsun ki, bu sistem necə olacaq və nə cür fəaliyyət göstərəcək. Ərazi üzrə və yaxud hansı formada olacaq?

Rayon xəstəxanalarında və ayrı-ayrı yerlərdə dövlət xəstəxanalarındakı MRT aparatı hamıya çatacaqmı və s. Göründüyü kimi suallar çoxdur və bütün bunlar çox ciddi nüanslar doğurur. Çox təəssüf ki, hər birimiz prosesin necə olacağından məlumatsızıq".

**Yeganə Bayramova**



# Müdafiə və iqtisadi müqavilələr dondurulacaq

## Blomberg Türkiyənin ABŞ-la bağlı planından yazdı

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ-la müdafiə və iqtisadiyyat sahəsindəki razılaşmanı dayandırmaq niyyətindədir.**

Sputnik Azərbaycan bildirir ki, bu barədə Bloomberg öz mənbələrinə istinadən yazıb.

Nəşr bildirir ki, bu addıma səbəb ABŞ prezidenti Co Baydenin aprelin 24-dəki məlum çıxışıdır. Agentlik yazır ki, Ərdoğanın atacağı addımlar sırasında müdafiə və iqtisadi əməkdaşlıq haqda ikitərəfli müqavilənin dondurulması da yer alır. Bu müqavilə vaxtilə Ankaraya Suriya və İraqdakı münaqişələr zamanı Vaşinqtonla birgə iş aparmağa yardım etmişdi.

Müdafiə paktı iki ölkə arasında hərbi qarşılıqlı əlaqələr sahəsində vacib sənədlərdən biridir. Müqaviləyə görə, Ankara və Vaşinqton kəşfiyyat məlumatları ilə mübadilə edir, birgə təlimlər keçirirlər, eləcə də amerikalıların Türkiyə aviabazalarına çıxışı var. Sənəddə türklərə maliyyə və iqtisadi yardımların göstərilməsi, eləcə də hərbi sənayenin müasirləşdirilməsi bəndləri də var.

# Baydenin açıqlamasının hüquqi əsası yoxdur



*Hər hansı bir beynəlxalq məhkəmənin qərarı olmadan heç bir dövləti soyqırımı törətməkdə ittiham etmək olmaz*

**Aprelin 24-də özünü demokratiya və insan haqları kimi üstün prinsiplərin "beşiyi" sayan ABŞ-ın Prezident Baydenin timsalında nə qədər ədalətsiz və məsuliyyətsiz addım atdığının şahidi olduq. Hər halda Baydenin bu hadisələrə soyqırımı adını verməsi birmənalı olaraq ABŞ-ın dünyadakı nüfuzuna zərbə vurur.**

Eyni zamanda Vaşinqtonun beynəlxalq tarixçilərin və hüquqşünasların inkar etdiyi hadisələrə ədalətsiz qiymət verməsini sübuta yetirir. Fəaliyyət göstərən siyasi partiyalar ABŞ Prezidentinin qondarma "erməni soyqırımı" məsələsi ilə bağlı mövqeyinə dair bəyanat yayıb. Azərbaycanın Xarici İşlər Nazirliyi (XİN) Baydenin açıqlamasını pisləyərək bəyanat yayıb: "ABŞ Prezidenti Co Baydenin erməni anım günü münasibətilə səsləndirdiyi bəyanatında 1915-ci il hadisələri ilə bağlı tarixi həqiqətlərin təhrif olunması təəssüf doğurur.

Qondarma "erməni soyqırımı" mövzusunu siyasiləşdirərək gündəmə gətirənlər, həmin dövrdə erməni silahlı dəstələri tərəfindən 500 mindən artıq insanın kütləvi öldürülməsi halları, habelə erməni daşnakların 1918-ci ilin martında Bakıda və Azərbaycanın digər regionlarında törətdikləri kütləvi qırğınlara münasibətdə susqunluq nümayiş etdirir".

Ölkəmizdə fəaliyyət göstərən siyasi partiyalar da ABŞ Prezidentinin qondarma "erməni soyqırımı" məsələsi ilə bağlı mövqeyinə dair bəyanat yayıb.

**Həmin partiyalar arasında Azərbaycan Demokrat Partiyası (ADP) da var. Partiyanın sədri Sərdar Cəlaloğlu Amerikanın tarixi səhvi ilə bağlı fikirlərini "Şərq"lə bölüşüb:** "Qondarma "erməni soyqırımı" ifadəsi ABŞ dövlətinin yox, Baydenin şəxsi mövqeyidir. Soyqırımı hüquqi bir prosedurdur, hər hansı bir beynəlxalq məhkəmənin qərarı olmadan heç bir dövləti soyqırımı törətməkdə ittiham etmək olmaz.

Soyqırımı haqqında beynəlxalq hüquq norması 1946-cı ildə müəyyən olunub. Kimsə 1946-cı ildə qəbul edilmiş qərar əsasında 1915-ci ildəki hadisələrə qiymət verə bilməz.

Belə olacağı təqdirdə Amerikada hinduların soyqırıma məruz qalması da bütün dünya tərəfindən qəbul olunur.

Yəni Baydenin açıqlamasının hüquqi nəticəsi ola bilməz".

**Yeganə Bayramova**

**Azərbaycan Xarici İşlər Nazirliyi Çernobıl fəlakətinin Beynəlxalq Anım Günü və 35-ci ildönümü ilə əlaqədar açıqlama yayıb. Açıqlamada deyilir:**



"Çernobıl Fəlakətinin Beynəlxalq Anım Gününün 35-ci ildönümü münasibətilə bu faciədən zərər çəkən ölkələrlə və

# "Metsamor" AES region üçün təhdiddir

## *"Beynəlxalq təşkilatlar Ermənistana təzyiq göstərməlidirlər"*

bütün insanlarla həmrəyliyimizi ifadə edirik".

*Sənəddə, həmçinin Ermənistandakı "Metsamor" stansiyası ilə bağlı narahatlıq ifadə olunub:* "Bu çərçivədə Ermənistandakı "Metsamor" AES ilə əlaqəli risklər beynəlxalq ictimaiyyət tərəfindən hərtərəfli şəkildə nəzərdən keçirilməlidir. Bu AES 1976-1980-ci illərdə Çernobılda istifadə edilən oxşar texnologiya ilə inşa edilib və aktiv seysmik zonada yerləşir. Köhnəlmiş texnologiya və mövqeyi "Metsamor"u dünyanın ən təhlükəli nüvə stansiyaları sırasına salır. Müxtəlif beynəlxalq təşkilatların bu obyekti "bütün bölgə üçün təhlükə" adlandıraraq xəbərdarlıq etmələrinə, Ermənistan "Metsamor" AES-in istismar müddətinin bitməsinə baxmayaraq, hələ də ondan istifadə etməyə davam edir".

**Politoloq Zaur Məmmədov rəsmi İrəvanın sözügedən inadkarlığına dair fikirlərini "Şərq"lə bölüşdü:** "Region üçün təhdid olan obyektlərdən biri də Ermənistandakı AES-dir. O, uzun on illiklər əvvəl tikilib və istismar müddəti çoxdan başa çatıb. Bunu Ermənistan rəhbərliyi özü də bilir. Hazırda "Metsamor"un gələcəyi barədə Rusiya və Fransa ilə danışıqlar aparılır. Lakin hələ də stansiyanın fəaliyyəti dayandırılmayıb. Bu isə region, o cümlədən Azərbaycan, Türkiyə, İran, Gücüstan, Rusiya və Ermənistanın özü üçün təhlükədir. Hər halda Çernobıl faciəsi hər kəsin gözü önündə yaşanıb. İkinci belə bir fəlakətin yaşanmamasından ötrü müvafiq beynəlxalq təşkilatlar Ermənistana təzyiq göstərməlidirlər. Müxtəlif vaxtlarda onlardan bəziləri həmin məsələni gündəmə gətirsələr də, bunu sonadək davam etdirməyiblər. Dediyim kimi, "Metsamor" AES region üçün ciddi təhdiddir. Ona görə də beynəlxalq ictimaiyyət Ermənistanın inadkarlığını pisləməlidir".

**Kənan**

# Bayden “silahı” atdı və məsələ bitdi

## ABŞ-ın Türkiyəyə qarşı istifadə etdiyi təzyiq alətlərindən biri artıq yoxdur

ABŞ Prezidenti Co Bayden rəsmi olaraq 1915-ci il hadisələrini "erməni soyqırımı" kimi tanıdı. Bununla da sələflərinin hər vəchlə qaçdığı arzuolunmaz bir işə imza atdı. Halbuki, Donald Tramp da daxil olmaqla Baydendən əvvəlki liderlər "böyük cinayət", "böyük faciə" ifadələrini işlədirdilər. Əslində, 1915-ci il hadisələrini "soyqırım" kimi təsnif edən ilk prezident Ronald Reyqan olub. Ancaq onun 1982-ci ildə dediklərini heç kim rəsmi tanıma kimi hesab etmir. Üstəlik, bunu erməni ekspertlərin özləri də deyirlər. Ancaq Baydenin dilindən bu kəlmə çıxdı.



*Amerika tarixin saxtalaşdırılmasına dəstək verməklə, ermənilərə havadarlıq etmiş oldu. Bu addım Türkiyəyə təzyiq məqsədi güdür*

Baydenin belə deyəcəyi bəlli idi. Analitiklər vurğulayıb ki, Bayden cümə günü Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefonla danışarkən bu niyyətini gizlətməyib. Türkiyə lideri isə qeyd edib ki, tarixi hadisələri siyasiləşdirmək Ankaraya təzyiq etməyə yardımçı olmayacaq. Açıqlamadan sonra Türkiyə XİN-ə ABŞ-ın Ankaradakı səfiri Devid Satterfild dəvət olundu. Səfirin diqqətinə Türkiyə tərəfinin Baydenin bəyanatının qəbuledilməz olduğu və heç bir hüquqi və tarixi əsasa malik olmadığı barədə rəyi çatdırılıb. Üstəlik, əlavə edilib ki, Amerika liderinin sözləri iki ölkənin münasibətlərinə xələl gətirir. Türkiyə 106 il boyunca bir mövqedə idi ki, ölkə tarixində ermənilərə qarşı heç bir soyqırım olmayıb və dəfələrlə 1915-ci il hadisələrinin araşdırılmasına dəvət edib. Ankara xüsusilə Yerevana arxivləri açmağı və hadisələrin araşdırılması üçün birgə komissiya yaradılmasını təklif edib. Lakin Ermənistan indiyədək bu çağırışa reaksiya verməyib. Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu Baydenin "erməni soyqırımı" ifadəsini işlətməsinə sərt münasibət bildirib: ”Siyasi fürsətçilik sülhə və ədalətə ən böyük xəyanətdir. Populizmə söykənən bu ifadəni tamamilə rədd edirik”. Türkiyə Prezident Administrasiyasının sözçüsü İbrahim Kalın da deyib ki, Ankara növbəti aylarda buna adekvat cavab verəcək: ”Qarşıdakı gün və aylarda fərqli formalarda qarşılıq veriləcək”. Məlum bəyanatdan sonra Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan arasında da telefon danışığı olub. Telefon danışığı əsnasında dövlət başçıları Baydenin qondarma ”erməni soyqırımı” ilə əlaqədar verdiyi bəyanatını qınayıblar. Qərarın yanlış olduğunu deyən Prezident İlham Əliyev onu tarixi səhv adlandırıb.

**İsrailli ekspert, vəkil Eli Naxt bildirib ki, qondarma ”erməni soyqırımı”nın tanınması dağıdıcı fəsadlara səbəb olacaq. Onun sözlərinə görə, bu heç də ədalət axtarışı deyil:** ”Mənim fikrimcə, bu, Bayden administrasiyasının Suriya məsələsində, ”Cənub axını” qaz kəməri layihəsində, S-400 zenit-raket komplekslərinin alınması məsələsində fikir ayrılıqlarına görə Prezident Ərdoğandan qisas almaq niyyətidir”. Ekspert bildirib ki, qondarma ”erməni soyqırımı”nın tanınması ilk növbədə ABŞ-ın özü üçün qeyri-məhsuldar rəmzi addım olacaq: ”Bu addım dağıdıcı fəsadlara gətirib çıxaracaq və ABŞ-Türkiyə münasibətlərində destabilizasiyaya, eləcə də Azərbaycanla ABŞ arasında münasibətlərdə çətinliklərə yol açacaq. Eyni zamanda bu, Ermənistanla Azərbaycan arasında münasibətlərin yaxşılaşmasına da kömək etməyəcək”.

**Millət vəkili Hikmət Babaoğlu deyib ki, ABŞ prezidentinin soyqırımı ifadəsinini işlətməsi tarixin təhrif olunması kimi qiymətləndirilməli və şiddətlə qınanmalıdır.** Deputatın sözlərinə görə, əslində 1915-ci ildə ermənilər türklərə və Anadoluda yaşayan digər müsəlmanlara qarşı soyqırımı törədiblər: ”1918-ci ildə azərbaycanlılara qarşı soyqırımı törədilib. 1992-ci ildə bütün dünyanın gözü önündə Xocalı soyqırımı baş verib. Əgər Co Bayden ”soyqırımı” ifadəsini işlətmək istəyirsə, birinci ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı ifadəsini işlətsin! Məsələnin kökünə gəldikdə isə Co Baydenin ”soyqırımı” ifadəsini işlətməsi beynəlxalq hüquq baxımından heç bir məsuliyyət yaratmır. Avropa İnsan Hüquqları Məhkəməsinin bu iddianı hüquqi baxımdan rədd edən məhkəmə qərarı var. Sadəcə ildə bir dəfə siyasi şantaj vasitəsi kimi Türkiyəyə qarşı tuşlanır və müəyyən güzəştlər əldə edilirdi. Bayden bu ”silahı” atdı və məsələ bitdi. Yəni ABŞ-ın qardaş Türkiyəyə qarşı istifadə etdiyi təzyiq alətlərindən biri artıq yoxdur. 1915-ci il hadisələri beynəlxalq hüquqda tərif edilən soyqırımı kriteriyalarına əsla uyğun deyil”. Parlament üzvü qeyd edib ki, Bayden ”soyqırımı” silahını ermənilərin də əlindən aldı: ”Ən təhlükəli fikir isə Baydenin ”Bunu kimisə günahlandırmaq üçün deyil, baş verənlərin təkrar olunmaması üçün edirik” ifadəsidir. Bu fikrin sətiraltı məzmunu, Türkiyəni hədələmək, Vətən müharibəsində Azərbaycanın yanında olduğuna görə onu siyasi müstəvidə şantaj etmək, həm də İrəvandakı qərbpərəst qüvvələri dəstəkləmək və onları seçkidə qalib etməkdir”.

**Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctimai Birliyinin sədri Fuad Hüseynzadə də ”Şərq”ə bildirib ki, Bayden bəyanatında ”soyqırımı” deyərək erməni məsələsini siyasiləşdirib:** ”Türkiyə hər zaman bu məsələ ilə bağlı tarixi arxivlərin açılmasına hazır olduğunu bildirib, lakin ermənilər bundan hər zaman qaçırlar. Ermənilər qondarma ”soyqırımı”nı sübut üçün heç bir əsaslı faktı ortaya qoya bilməyiblər. Ermənilər 1915-ci ildə Osmanlı İmperiyasının bir hissəsindən digər hissəsinə köçürülmələrini ”soyqırımı” kimi təqdim etməklə öz maraqlarını həyata keçirməyə çalışırlar. 1915-ci il 24 aprel hadisələrinin ”soyqırımı” adlandırılması əsassız və uydurma olmasını tarix faktlar təsdiq edir. Əslində soyqırımı zaman-zaman ermənilər türklərə və azərbaycanlılara qarşı həyata keçiriblər və bunu sübut edən kifayət qədər materiallar var. 1918-ci ildə Azərbaycanın bir sıra bölgələrində, əsasən də Bakıda erməni daşnakları tərəfindən azərbaycanlılara qarşı soyqırımı törədilib. Ermənilər bu soyqırımını ötən əsrin 90-cı illərində Qarabağda, Xocalıda davam etdiriblər”.

*QHT sədrinin fikrincə, saxta məsələyə ABŞ-ın belə münasibəti nə həqiqət, nə də ədalət meyarlarına uyğun gəlir:* ”Amerika tarixin saxtalaşdırılmasına dəstək verməklə, ermənilərə havadarlıq etmiş oldu. Bu addım Türkiyəyə təzyiq məqsədi güdür. Azərbaycanın dostuna qarşı çevrilmiş bu mövqe, həm də Azərbaycana qarşı yönəlmiş addımdır. Məhz buna görə də saxtakarlara və onların havadarlarına qarşı mübarizədə hər iki qardaş xalqın qüvvələri hər zaman bir olublar. Vətəndaş cəmiyyəti olaraq Co Baydenin qondarma ”erməni soyqırımı” ilə əlaqədar verdiyi bəyanatı qınayır və qəbuledilməz hesab edirik”.

**İsmayıl Qocayev**

# Rəsmi Bakı sərt üzünü göstərməlidir

## Rusiya və Ermənistan razılaşmanı heçə sayır

### “Qarabağda Azərbaycanın suveren hüquqlarını pozmaqda davam edirlər”

"Düşmən qüvvələrin siyasi və diplomatik təzyiqləri qarşısında Azərbaycan zərrə qədər də geri çəkilməməlidir!".

Bu sözləri BDU-nun Jurnalistika fakültəsinin professoru, siyasi elmlər doktoru Sabir Məmmədli deyib. Professor məsələ barədə daha ətraflı "Şərq"ə danışdı:



”Rusiya və Ermənistan mövcud razılaşmaları heçə sayaraq Qarabağda Azərbaycanın suveren hüquqlarını pozmaqda davam edirlər və bütün vasitələrlə bu ərazilərdə möhkəmlənməyə çalışır. İrəvan şəhər rəhbərliyinin Xankəndinə ”rəsmi” səfəri və qondarma rejimin başçıları ilə müxtəlif sənədlərin imzalanması, Rusiya sülhməramlılarının Xankəndi və ətraf ərazilərdə yaşayan ermənilər üçün bir aylıq ”vətənpərvərlik aksiya”sının təşkili, davamlı şəkildə onlara humanitar yardım paylanması, müxtəlif yerlərdə ermənilər üçün tibbi yardım məntəqələrinin təşkili düşmən qüvvələrin əsl niyyətlərini ortaya qoyur. Bütün bunlar Azərbaycan hakimiyyətinin qəti addımlar atmasını labüd edir”.

**S.Məmmədli görülməsi vacib olan tədbirləri də sadaladı:** ”Rəsmi Bakı keçmiş məcburi köçkünlərimizin Xankəndi və ətraf ərazilərə qaytarılması, Rusiya sülhməramlılarının statusunun müəyyənləşdirilməsi məsələlərində və düşmən qüvvələrinin ”İsgəndər” raketindən istifadə etməsinə aydınlıq gətirilməsi tələbində daha qətiyyətli olmalıdır. Həmin istiqamətlərdə birmənalı addımlar atılmalıdır.

Azərbaycan Ermənistanın bu illər ərzində ölkəmizə vurduğu ziyanı tələb etməli və düşmən ölkə həmin maddi vəsaiti ödəyə bilmədiyi halda Zəngəzuru və Göyçə torpaqlarını təhvil verməlidir.

Son günlər beynəlxalq güc mərkəzlərində ermənipərəst qüvvələrin diplomatik cənfəşanlığı və Azərbaycanın əleyhinə yönəlmiş fəaliyyətləri, o cümlədən ATƏT-in Minsk qrupu həmsədrlərinin, Rusiya XİN rəhbəri Lavrovun, Rusiya Federasiya Şurasının beynəlxalq komitəsinin sədri Karasinin bəyanatları ölkəmizə qarşı atılmış addımlardır.

Bu bəyanatlar fonunda Azərbaycan rəhbərliyinin ATƏT-in Minsk qrupuna Qarabağdakı proseslərə yenidən qarışmasına razılıq verməsini doğru hesab etmirəm”.

**Kənan**

# Bayden Paşinyanın seçkidə qalib olmasına şərait yaratdı



## ABŞ prezidenti labüd olan Türkiyə-Ermənistan əlaqələrinin yaxınlaşmasına imkan vermədi

Ermənistanın Baş naziri Nikol Paşinyan istefa verdiyini açıqlayıb. Baş nazir bu addımını iyunun 20-də növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı atdığını deyib. Paşinyan baş nazir postuna yenidən namizəd olduğunu, seçkilərə hazırlaşacağını bəyan edib. Bildirib ki, rəhbərlik etdiyi "Vətəndaş razılığı" partiyası seçkilərdə iştirak edəcək və partiya onun namizədliyini irəli sürəcək:

"Xalq mənim baş nazir vəzifəsindən getməyimə qərar verərsə, onların iradəsini yerinə yetirəcəm. Baş nazir vəzifəsində qalmağıma qərar versələr, o zaman səlahiyyətlərimin icrasına başlayacam". Paşinyanın bu bəyanatı formal xarakter daşıyır, çünki o, istefa versə də, ölkə rəhbəri vəzifəsini "müvəqqəti" icra edəcək. Ermənistanın mövcud konstitusiyasına görə, növbədənkənar parlament seçkiləri yalnız baş nazir istefa verdiyi, parlament isə iki dəfə yeni baş naziri seçə bilmədiyi halda mümkündür. Nəzərdə tutulan parlament seçkiləri proporsional seçki sistemi əsasında keçiriləcək.

**BAXCP sədrinin müşaviri, siyasi şərhçi Azər Qasımov "Şərq"ə bildirib ki, Paşinyanın bu seçkilərdən güclü çıxacağı mütləqdir.** Analitikin fikrincə, baş nazirin çıxışlarındakı özünəəminlik hissi güclüdür: "Paşinyan seçkiqabağı bütün hadisələri kampaniya dövründə lehinə istifadə etməyə çalışacaq. Xüsusən, qondarma "soyqırım" kimi erməni cəmiyyəti üçün əhəmiyyət kəsb edən məsələdən əlavə xal qazanmaq istəyəcək. Co Baydenin məlum çıxışı Nikol Paşinyanın hakimiyyəti dövrünə təsadüf etdi. Lakin "soyqırım" ifadəsinin işlədilməsində heç bir rolu olmayan Paşinyan guya onun da əməyi varmış kimi davranacaq. Qondarma "soyqırım" ifadəsinin Ermənistana nə qədər zərbə vurduğunu ermənilər dərk edəcəklər. Bayden bu addımı ilə labüd olan Türkiyə-Ermənistan əlaqələrinin yaxınlaşmasına imkan vermədi. Hələlik ermənilər bunun fərqində deyil. Çünki "soyqırım" adlı xəstə təfəkkür ermənilərin genlərinə işləyib. İllərdir bu ideyanın əsirinə çevriliblər. Bu ideya onları bir arada tutmağa xidmət edir. İndiki halda "soyqırımı" ifadəsinin Amerika prezidenti tərəfindən dilə gətirilməsi Paşinyana siyasi dividend gətirəcək. Paşinyanın seçkidə böyük səs çoxluğu ilə qalib gələcəyi ehtimalı güclüdür".

*Ekspert vurğulayıb ki, qondarma "soyqırımın" tanınması erməni lobbisinin əsas məqsədi olan təzminat məsələsini gündəmə gətirəcək:* "Ermənilər "soyqırımı" tanıtmaqla Türkiyəyə qarşı təzminat davası açmaq və hətta bunun əvəzində torpaq iddiası irəli sürmək niyyətindədirlər. Məlumdur ki, 40-dan çox ölkə bunu tanıyıb. Ermənilər Amerika və Fransa kimi ölkələrin məhkəmələrində "soyqırım" davaları açaraq, məhkəmə qərarları çıxartmaq fikrindədir. Bu məsələyə ciddi yanaşmaq lazımdır. Bunun qarşısını Qarabağda ermənilərin bizə vurduğu maddi və mənəvi zərərin qarşılığında təzminat davaları açmaqla almaq olar. Erməni lobbisi görməlidir ki, əldə edəcəkləri qazanc itirəcəklərindən qat-qat çox olacaq. Bu onları geri çəkilməyə məcbur edəcək. Bizim işimiz haqq işidir. Ona görə də son nəticədə qalib gələcəyimiz mütləqdir".

**İsmayıl Qocayev**



## Gürcüstanda vahid idarəçilik sistemini əldə saxlamaq çətindir

### Vəzifəli şəxsləri dəyişməklə siyasi böhran bitməyəcək

**Gürcüstan parlamentinin sədri Arçil Talakvadze istefa verib. Bu barədə o, parlament iclasından sonra keçirdiyi brifinqdə məlumat verib.**

"Gürcü Arzusu" partiyasını təmsil etdiyim danışıqların müqavilənin imzalanması ilə başa çatdığını nəzərə alaraq hesab edirəm ki, parlamentin normal işləməsi üçün spiker postundan getməliyəm", - deyə Talakvadze bildirib. Talakvadze 2019-cu ilin iyunundan parlamentin spikeri vəzifəsini icra edib. Qeyd edək ki, hökumətlə kompromis sazişi imzalayan müxalifət nümayəndələri 27 apreldə Gürcüstan parlamentində təmsil olacaqlar.

Bu, qonşu ölkədəki ilk belə hal deyil. Müxtəlif vəzifəli şəxslər əvvəllər də bir neçə dəfə gözlənilmədən istefa qərarı veriblər. Deməli, subyektiv yox, obyektiv səbəblər var.

**Məsələ barədə "Şərq"ə danışan siyasi analitik Turab Rzayev bunu daxildəki vəziyyətlə əlaqələndirdi:** "Gürcüstanda yaxın keçmişdə baş nazir də daxil olmaqla bir neçə vəzifəli şəxs istefa vermişdi. Çünki ölkədə siyasi böhran var. Son parlament seçkilərindən sonra hakimiyyət siyasi legitimliyi təmin edə bilmir. Hökumət çalışır ki, müxalifət də parlamentdə təmsil olunsun və iqtidarın qazandığı çoxluğu təsdiqləsin. Müxalifət isə bunu istəmir, parlamenti legitim hesab etmir. Hazırda mübarizə davam edir. Hakimiyyət müxtəlif yollarla öz məqsədinə çatmağa çalışır, qarşı tərəf müqavimət göstərir. Hələlik vahid idarəçilik sistemini əldə saxlamaq çətindir. Vəzifəli şəxsləri dəyişməklə siyasi böhran qurtarmayacaq. Yalnız növbədənkənar seçkilər vəziyyəti düzəldə bilər. O vaxta kimi isə xaotik durum davam edəcək".

**Kənan**

## Biz hamını əməkdaşlığa çağırırıq

### Azərbaycanın yaratdığı nəqliyyat sistemi bölgənin bütün dövlətlərinin marağına uyğundur



**Prezident İlham Əliyev BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının 77-ci sessiyasında videoformatda çıxış edib.**

Ölkə başçısı qeyd edib ki, Azərbaycan regionda dayanıqlı sülh və təhlükəsizliyi təmin etmək arzusundadır: "Azərbaycan Şərq-Qərb, Şimal-Cənub, Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional bağlantı layihələrinin icrasına mühüm töhfə verib. Hazırda biz Azərbaycan ərazisindən Asiyanı Avropa ilə birləşdirən Şərq-Qərb dəhlizinin tərkib hissəsi olacaq "Zəngəzur nəqliyyat dəhlizi" üzərində çalışırıq. Bu dəhliz Azərbaycana Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi mövqeyini gücləndirməyə imkan verəcək. Mən Asiya və Sakit okean hövzəsindən olan tərəfdaş ölkələri bu regional layihənin potensialını nəzərdən keçirməyə dəvət edirəm".

**Millət vəkili Asim Mollazadə "Zəngəzur nəqliyyat dəhlizi"nin ölkəmiz üçün əhəmiyyətini "Şərq"ə dəyərləndirib.**

Parlament üzvü bildirib ki, Azərbaycan bir sıra-şərb-qərb, şimal-cənub istiqamətlərində nəqliyyat dəhlizləri və enerji kommunikasiyalarının inkişafına mühüm töhfə verib: "Bu, yalnız ölkəmiz üçün böyük önəm daşımır. Həmin dəhlizlər qitə və regionları birləşdirən, tərəfdaşlığa xidmət edən layihələrdir. Bu layihələr demək olar ki, bölgəmizdəki bütün dövlətlərin marağındadır. Cənab Prezident çıxışı zamanı böyük regionun maraqlarını əhatə edən konfransda fikirlərini ifadə etdi. Ölkə başçısı çıxışında bölgədəki dövlətləri əməkdaşlığa dəvət etdi və Azərbaycanın yaratdığı, daha da genişləndiriləcək sistemə həmin dövlətlərin diqqətini cəlb etdi. Bu, çox mühüm məsələdir. Çünki regionda olan ölkələr əməkdaşlıq üçün yeni nəqliyyat dəhlizləri axtarır. Azərbaycanın yaratdığı nəqliyyat sistemi də həmin dövlətlərin marağına uyğundur. Əminəm ki, regiondakı ölkələr bu dəvəti qəbul edib əməkaşlığa qoşulacaqlar".

**Yeganə**

## Bakı rus qoşunlarının Azərbaycandan çıxarılmasını tələb etməlidir

### Tural Abbaslı: *"Niyə general Rüstəm Muradov Bakıya avtobus göndərmir ki, Xankəndi qeydiyyatında olan vətəndaşlarımız öz doğma yurdlarına, qanuni mülklərinə geri dönsünlər?"*

"Rusiya sülhməramlıları artıq öz missiyalarının öhdəsindən gəlmədiklərini etiraf etməlidirlər". Bunu "Şərq TV"də çıxışı zamanı AĞ Partiya sədri Tural Abbaslı səsləndirib. Partiya rəhbəri bildirib ki, rəsmi Bakı rus qoşunlarının Azərbaycandan çıxarılması tələbi ilə çıxış etməlidir:

"Əgər Rusiya sülhməramlıları Xankəndidə Azərbaycan və Türkiyə bayraqlarının yandırılmasına mane ola bilmirsə, orada bizim vətəndaşlarımızı qoruya biləcəkmi? Aydın görünür ki, Rusiya sülhməramlıları öz öhdəliklərini yerinə yetirmir. 10 noyabr Bəyanatına görə, Qarabağda erməni silahlıları qalmamalıydı. Amma hələ də oradan çıxarılmayıblar və özləri üçün "postlar" qurublar. Rusiya tərəfi Azərbaycanla Ermənistan arasında sülhün yaradılmasına, hər iki xalqın nümayəndələrinə bərabər şərait yaradılmasına xidmət edən addımlar atmır. Ruslar Qarabağa gələndən sadəcə bir icmanın - ermənilərin qulluğunda dayanıblar. Sülhməramlıların işi ermənilərə mədəniyyət evi, yaxud hamam, sanitar qovşağı və s. tikmək, yol çəkmək deyil ki. Niyə general Rüstəm Muradov Bakıya avtobus göndərmir ki, Xankəndi qeydiyyatında olan vətəndaşlarımız öz doğma yurdlarına, qanuni mülklərinə geri dönsünlər? Ermənilərin qayğısına qalırlarsa, onları hər cür şəraitlə təmin edirlərsə, azərbaycanlılarla bağlı da eyni addımları atsınlar".



**T.Abbaslı Rusiyanın separatçı Araik Arutyunyanla əməkdaşlığını da sərt tənqid edib:** "Separatçı Araik Arutyunyan özü etiraf edib ki, Gəncə və Bərdəyə raketlərin atılması əmrini o verib. Bu açıqlamadan sonra Kreml rəhbəri quldur Arutyunyanla nəyi müzakirə edir? Bağlı qapılar arxasında nələrdən danışılır? Rusiyanın xüsusi xidmət orqanları Arutyunyanı hansı statusla qəbul edirlər, görüşdə masanın üzərində hansı bayraq olur? Mən də təklif edirəm ki, Çeçenistanın xarici işlər naziri olmuş Zakayevi Bakıya dəvət edək. Əgər separatçı dediyimizlə Moskvada görüşlər keçirilirsə, biz də onların separatçı dedikləri ilə bir araya gələk. Belə olarmı?

**İsmayıl**

# Terrorçu başı əliboş qayıdacaq

**Xankəndiyə toplaşan erməni separatçılarının cinayətkar başçısı Araik Arutyunyan bu günlərdə təcili olaraq Moskvaya çağırılıb. "Hraparak" qəzetinin yazdığına görə, baş separatçının Rusiya xüsusi xidmət orqanları ilə görüşləri olacaq.**



*Arutyunyanın Moskva səfərinin ciddi əhəmiyyəti yoxdur*

Qeyd edilir ki, ruslar Araik Arutyunyanın Nikol Paşinyanın göstərişləri ilə hərəkət etməsindən narazıdır. "Rusiya xüsusi xidmət orqanları Arayik Arutyunyanın Ermənistan rəhbərliyinə itaətkar davranışından narahatdır və onu özünə gətirməyə çalışacaq"- deyə qəzet yazır. Arutyunyanın Moskvaya səfərinin nə qədər qanuni olduğu özü mübahisəli məsələdir. Kreml rəhbərliyi onu hansı statusla qəbul edib?

**BDU-nun professoru, politoloq Əlimusa İbrahimov səfər barədə qaranlıq məqamları "Şərq"ə açıqladı:** "Bu, göstərilən növbəti "şou nömrəsi"ndən başqa bir şey deyil. Arutyunyanı Moskvaya kimsə çağırmayıb və o, Putinlə görüşməyib. Sadəcə, qondarma xuntanın "rəhbərliyi" özünü "dəyərə mindirmək" və guya, siyasi proseslərə təsir imkanını göstərmək üçün belə bir piar kampaniyası aparır.

Reallıq ondan ibarətdir ki, vəziyyət Azərbaycanın istədiyi kimi inkişaf edir və üçtərəfli bəyanatın tələbləri addım-addım yerinə yetirilir.

Arutyunyan isə yaranacaq yeni reallıqda özünə yer tapmaq məqsədilə Rusiyadakı əlaqələrindən yararlanır.

Şübhəsiz ki, "əlaqələr" dedikdə yüksək səviyyəli şəxslərlə yox, sadəcə bəzi erməni qüvvələrin Moskvadakı tanışları ilə münasibətlərini nəzərdə tuturam. Araik əslində onlarla məsləhətləşmək üçün Rusiyaya gedib və özünü əhəmiyyətli göstərmək üçün belə fon yaradıb".

**Ə.İbrahimovun fikrincə, səfər o qədər də ciddi məsələ deyil:** "Bu, Paşinyanın sərsəm bəyanatları qədər əhəmiyyətsizdir. Baş nazirin Putinlə görüşü nəyisə həll etməyibsə, deməli, bu səfər də nəticəsiz qalacaq. Odur ki, ciddi bir əhəmiyyəti yoxdur".

**Kənan**

## "Vicdanlı və ləyaqətli adam idi"

### Rey Kərimoğlu işdən çıxarılan generalı təriflədi



**Müdafiə Nazirliyinin üç generalı işdən çıxarılıb.** AR Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin birinci müavini, general-leytenant Zahid Hüseynov, MN-in İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi-Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini, general-mayor Rasim Əliyev, Naxçıvan Əlahiddə Ümumqoşun Ordu komandanlığının Təşkilat-İnspeksiya rəisi, general-mayor Lənkəran Əliyev tutduğu vəzifədən azad olunaraq, təqaüdə göndəriliblər.

Bu məsələ ictimaiyyət arasında ciddi ajiotaj yaradıb. Bəziləri generalların işdən çıxarılmasının başqa səbəblərlə bağlı olduğunu düşünürlər.

**Qarabağ qazisi, "Qazilər.az" saytının baş redaktoru Rey Kərimoğlu sözügedən qərarlarla bağlı "Şərq"ə danışdı:** "Bildiyimə görə, həmin generalların təqaüd yaşı çatıb və ehtiyata göndəriliblər. Onların arasında ancaq Rasim Əliyevi tanıyırdım. Çox vicdanlı və ləyaqətli adam idi. Milliliyi, vətənpərvərliyi ilə seçilirdi. Ordu üçün əlindən gələni edirdi. Düşünürəm ki, onun hansısa formada xidmətdə saxlanılması və silahlı qüvvələrimizə yeni töhfələr verməsi yaxşı olar. Digərlərini isə tanımadığıma görə onlar haqqında danışa bilmərəm".

**Kənan**

# "Rusiya güvəniləcək müttəfiq deyil"



## "İndi ABŞ-Türkiyə münasibətləri Baydenin təkcə atacağı yox, həm də atmayacağı addımlardan asılıdır"

Son bir neçə gündür ki, həm də Azərbaycan, həm də Türkiyə siyasi gündəmindəki əsas mövzu ABŞ Prezidenti Co Baydenin uydurma erməni soyqırımı ilə bağlı açıqlamasıdır. Bəzən dediklərini qarışdıran, təyyarənin nərdivanında yıxılan bu ahıl dövlət başçısının sözügedən bəyanatını eşitməzlikdən gələrək yaşı ilə əlaqələndirmək doğru olmaz.

Hər halda ilk saatlardan etibarən ciddi diplomatik manevrlər edildi. Həm rəsmi Bakı, həm də qarşı ölkə Baydenə tutarlı cavablar verərək, onun tarixi saxtalaşdırdığı faktlarla izah etdi.

**Türkiyəli professor, beynəlxalq münasibətlər üzrə ekspert Yaşar Onay ABŞ dövlət başçısının fikirlərini və onun siyasi nəticəsini "Şərq"ə şərh etdi:** "Baydenin bu açıqlaması bir müttəfiq olaraq Türkiyəyə dəyər vermədiyini göstərdi. Deməli, ABŞ administrasiyasındakılar çox dar düşüncəlidirlər. Çünki Türkiyə regionun əsas iştirakçılarındandır. ABŞ Türkiyənin dəstəyini almadan bölgə ilə bağlı planlarını həyata keçirməkdə çox çətinlik çəkər. İkinci bir tərəfdən, biz NATO ölkəsiyik və həmin qurumun ən güclü ordularından birinə sahibik. Hətta Qara dənizdəki hadisələr belə, ABŞ-ın Türkiyəsiz nə qədər aciz olduğunun sübutudur".

**Y.Onayın fikrincə, rəsmi Vaşinqtonun gələcəkdə peşman olması da istisna deyil:** "Yerli xalq ABŞ-la müttəfiq olmağın lazımsızlığını anlayıb. Bu, yeni bir mərhələnin başlanğıcıdır. Türkiyə bu mərhələdən qalib çıxacaq. Bayden isə öz açıqlaması ilə yatan divi oyandırdı... İndi ABŞ-Türkiyə münasibətləri Baydenin təkcə atacağı yox, həm də atmayacağı addımlardan asılıdır. Tərəflər arasındakı münasibətlərin bu həddə çatması Türkiyənin Rusiya ilə yaxınlaşacağı kimi başa düşülməməlidir. Rusiya güvənilə biləcək müttəfiq deyil. Üstəlik, müzakirə mövzusu Ermənistan olanda Baydenlə Putin həmişə biri-birlərinə uyğun davranıblar. Yəni türkün türkdən başqa dostu yoxdur".

**Kənan**

Şəmkir Rayon İcra Hakimiyyətində Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən hüquq-mühafizə orqanları tərəfindən əməliyyat keçirilib. Əməliyyat nəticəsində icra başçısının sabiq birinci müavini, hazırkı təhsil şöbəsinin müdiri Qüdrət Əliyev, baş memar İlqar Quliyev, şəhər icra nümayəndəsi Pərviz İbrahimov və Mənzil-Kommunal İstismar İdarəsinin rəisi Teymur Hacıyev saxlanılıb.



# Həbs dalğası genişlənir

## Əhalinin malına, puluna, kartına göz dikmək olmaz



Yeni kadrların içərisində bəzi adamlar var ki, köhnə qaydaları dəyişməyiblər

Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədovun da saxlanıldığı bildirilir. A.Məmmədov bu gün DTX tərəfindən Bakıya gətirilib.

**Məmurların vəzifələrindən sui-istifadə hallarının xalqımıza yaraşmadığını deyən Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun (MQF) prezidenti Rauf Zeyni "Şərq"ə bildirib ki, cənab Prezident tərəfindən bütün istiqamətlərdə ciddi islahatlar aparılır:** "Hər birimiz bu islahatları dəstəkləyirik. Vətəndaş cəmiyyəti və qeyri-hökumət təşkilatları (QHT) olaraq illərdir ki, korrupsiya, rüşvətxorluq, məmur özbaşınalığı və islahatlara əngəl olan digər mənfi hallarla mübarizə aparırıq. 20 ildən çoxdur ki, seminar və treninqlər keçiririk və qeyd edirik ki, düşüncəni dəyişmək lazımdır. Düşüncə dəyişməsə, yenə də məmurların və vəzifəli şəxslərin həbsi olacaq. Ona görə də vətəndaşın düşüncəsi bağçadan, məktəbdən, universitetdən dəyişməlidir. Hər kəs bilməlidir ki, dövlət məmuru xalqa və dövlətə xidmət etməlidir. Cənab Prezident dəfələrlə qeyd edib ki, çirkin əməllərdən əl çəkmək lazımdır və məmurlar vətəndaşlarla yaxın olmalı, bütün fəaliyyətləri onlara xidmət etməkdir. Əhalinin malına, puluna, kartına göz dikməkdən uzaq durmalıdırlar".

*R.Zeyni vurğulayıb ki, son zamanlar vəzifəyə yeni təyin edilmiş bəzi kadrlar doğrudan da effektiv işlər görürlər:* "Amma bəzi kadrlar da var ki, onlar üçün qaydalar dəyişməyib. Fikrimcə, bir az zaman lazımdır ki, köhnə düşüncələrdən azad olaq. Cəmiyyətdə yeni düşüncə hakim olmalıdır. 44 günlük şərəfli müharibədən sonra əldə etdiyimiz qələbəyə layiq olmalıyıq. Belə qələbə əldə edən millətin nümayəndələrinə yaraşmaz ki, korrupsiya və rüşvətxorluq üstündə həbs olunsunlar. Ona görə də bütün gücümüzü səfərbər etməliyik. Dövlət, hökumət, QHT-lər müasir və təmiz kadrların vəzifəyə gəlməsi üçün çalışmalıdır. Ölkə başçısı tərəfindən qarşımıza qoyulan məqsəd və vəzifələr ləyaqətlə yerinə yetirilməlidir".

**Yeganə Bayramova**

# Rusiya səbrimizi sınağa çəkir

## Rus sülhməramlılarının indi də "xeyriyyəçilik" obrazında çıxış etməsi qəbul olunan deyil

Rusiya sülhməramlılarının Qarabağdakı arzuolunmaz davranışları Azərbaycan ictimaiyyətinin haqlı narazılığına səbəb olmaqdadır. Sanki səbrimizi sınağa çəkmək üçün fəaliyyət göstərən sülhməramlılar demək olar ki, hər addımda səlahiyyətini aşır, hiddət doğuran hərəkətlərə rəvac verirlər. Qanuni missiyalarından kənar davranmağı adət halına gətirmiş rus sülhməramlıları indi də "xeyriyyəçilik" obrazında çıxış edirlər.



"Qarabağda hazırda erməni silahlıları qanunsuz olaraq qalmaqdadır. Bu, Kremlin açıq siyasətidir"

Rusiya tərəfindən verilən rəsmi məlumata əsasən, sülhməramlılar yerli əhali üçün tibbi-humanitar aksiya təşkil edərək əhaliyə 1000 kq-lıq yardım paylayıblar. Lakin ölkə ictimaiyyətinin etirazına səbəb rusların ermənilərı yedirib-içirməsi deyil. Təəssüfləndirici məqam odur ki, sülhməramlıların fəaliyyətinə cavabdeh qurum - Rusiya Müdafiə Nazirliyi də qərəzli informasiya yaymaqla məşğuldur. Rusiya Müdafiə Nazirliyinin rəsmi internet səhifəsində yazılan məlumat belədir: "Sülhməramlılar "Dağlıq Qarabağa" daxil olan "Şaumyan" rayonunun "Aknaberd" kəndində yerli əhali üçün tibbi-humanitar aksiya təşkil edib və yerli əhaliyə 1000 kq-lıq yardım paylanılıb". Şübhəsiz, Rusiyanın rəsmi qurumları Azərbaycanda "Şaumyan" adında rayon olmadığını, "Aknaberd" adlandırdıqları kəndin adının Umudlu olduğunu çox yaxşı bilirlər. Sözügedən ərazi əvvəlcə Ağdərə rayonunun tərkibinə daxil olub, indi də Tərtərə birləşdirilib. Bir daha xatırladaq ki, 10 noyabr üçtərəfli bəyanatına görə, sülhməramlı kontingent bölgədə hərbi əməliyyatların dayandırılmasına nəzarəti həyata keçirir. Onların işi "xeyriyyəçilik" etmək, quldur Araik Arutyunyanı Moskvaya aparıb-gətirmək, Azərbaycan torpağında 9 may paradına hazırlıq görmək deyil.

**Narazılığa səbəb olan məqamı "Şərq"ə dəyərləndirən Milli Strateji Təhqiqatlar Mərkəzinin rəhbəri, politoloq Natiq Miri Rusiyanın qəsdən bu cür davrandığını deyib.** Analitik qeyd edib ki, Moskva hələ də Qarabağda 44 günlük müharibəyə qədərki "status-kvo"nu tanımaqda davam edir: "Bunun başqa izahı yoxdur. Müharibədən sonra Rusiya prezidenti iki dəfə ardarda bildirdi ki, "Dağlıq Qarabağın son "statusu" müəyyənləşənədək indiki vəziyyətin qalması münasibdir". Rusiya Müdafiə Nazirliyinin həmin açıqlaması Kremlin bu siyasətinin davamıdır. Əgər bu gün Qarabağda qondarma rejimi saxlamaq tərəfdarı olan separatçılar qalıbsa, cinayətkar Araik Arutyunyan Xankəndidə "fəaliyyət" göstərirsə, bunun səbəbi Moskvanın təminatıdır. 10 noyabr bəyannaməsinə rəğmən, Qarabağda hazırda erməni silahlıları da qanunsuz olaraq qalmaqdadır. Bu, Kremlin açıq siyasətidir. Problem ondadır ki, rus sülhməramlılarının fəaliyyəti qanunvericiliyə uyğunlaşdırılmayıb. BMT-dən verilmiş hansısa mandata sahib deyillər. Onların fəaliyyət sferası mütləq şəkildə müəyyən olunmalıdır ki, öz missiyalarından kənar hansısa addım atdıqlarında hüquqi cəhətdən ona etiraz edək".

**İsmayıl Qocayev**

# Bu həm terrorçulara, həm də qlobal güclərə mesajdır

## Türkiyəli general İraqdakı əməliyyatların detallarını açıqladı



**Türkiyənin Müdafiə naziri Hulusi Akar Türk Silahlı Qüvvələrinin yüksək rütbəli zabitləri ilə "Pəncə-İldırım" əməliyyatının icra mərkəzindəki vəziyyətlə yerində tanış olmaq üçün İraq sərhədinə gəlib.**

Hulusi Akarla yanaşı Türk Silahlı Qüvvələrinin daha bir neçə yüksək rütbəli zabiti Hakkarinin Yüksəkova bölgəsindəki 3-cü Piyada Tümən Komandanlığında olub. H.Akara İraqın cənubunda terror qruplaşmasına yönəlik, Avaşin-Basyan bölgəsində keçirilən "Pəncə-İldırım" anti-terror əməliyyatının gedişi ilə bağlı məlumat verilib.

**Türkiyəli ehtiyatda olan general Yücel Karauz əməliyyatlar barədə "Şərq"ə danışdı:** "Məqsəd İraqın şimalında yaradılan dəhlizi dağıtmaq, oradakı terrorçuları zərərsizləşdirmək və separatçıları sərhədlərdən uzaqlaşdırmaqdır. Bunun üçün 6 bölgədə əvvəlcə hərbi hava qüvvələri hücuma keçdilər. Ardınca isə peşəkar zabitlərin rəhbərliyi ilə xüsusi təyinatlı qoşunlar anti-terror əməliyyatına başladılar. Bu, Türkiyənin Suriyada və İraqda terrorçulara qarşı mübarizəsinin qətiliyini göstərir. Onu da deyim ki, əməliyyatların aprelin 24-də- ABŞ Prezidenti Co Baydenin qondarma erməni soyqırımını tanıdığı gün başlaması Türkiyənin həm terrorçulara, həm də qlobal güclərə mesajıdır. Allah türk əsgərinin köməyi olsun!".

**Kənan**

# Səhiyyə sistemindəki yara çox dərindir

## Oqtay Şirəliyevi işdən çıxarmaqla məsələ bitmir

Səhiyyə sahəsindəki bəzi rəhbər şəxslərin korrupsiyaya yol verməsi təəssüflər olsun ki, bu sahənin inkişafı üçün görülən tədbirləri kölgə altında qoyur. Belə hallara nəzarət etməli olan Səhiyyə Nazirliyi də buna görə böyük məsuliyyət daşıyırdı və yaxasını kənara çəkə bilməzdi. Bu baxımdan Prezidentin Sərəncamı ilə Oqtay Şirəliyev Azərbaycan Respublikasının səhiyyə naziri vəzifəsindən azad edildi.

Bu günlərdə Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin Modul Tipli Hospitalının baş həkimi Ağayev İmran Əli Ağa oğlu həbs edilib. "Yeni klinika" tibb müəssisəsinin direktoru Abbasov Pərviz Akif oğlu da saxlanılıb.

Daha bir xəstəxanada da vəzifəli şəxslərin əməlləri ifşa edilib. 18 saylı Birləşmiş şəhər xəstəxanasının vəzifəli şəxslərinin və qeyrilərinin qanunsuz əməlləri ilə əlaqədar vətəndaşlardan daxil olmuş müraciətlər əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırma aparılmaqla Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb. Aparılmış istintaq-əməliyyat tədbirləri ilə qeyd olunan xəstəxananın vəzifəli şəxsləri ilə tibb qeydiyyatçılarının qabaqcadan əlbir olub vəzifə səlahiyyətlərindən sui-istifadə edərək müxtəlif pul məbləğləri müqabilində ayrı-ayrı vətəndaşların, guya, COVİD-19 pandemiyası əleyhinə vaksinasiya prosesində müayinədən keçərək peyvənd olunmaları barədə yalan məlumatları müvafiq informasiya portalına daxil etmələri və bununla əlaqədar digər zəruri saxta sənədləri tərtib etmələrinə əsaslı şübhələr yaranıb.



"Vəzifəli şəxslər yenə başına qohum-əqrəbasını toplayacaqsa, heç nə düzəlməyəcək"

**Səhiyyə sistemindəki islahatları "Şərq"ə şərh edən iqtisadçı-alim Nazim Bəydəmirli bildirib ki, hansısa nazirin işdən çıxarılması islahat kimi qəbul edilməməlidir:** "İslahat köklü idarəetmə dəyişikliyinə gətirib çıxartmalıdır. Təəssüf ki, hər hansı bir sahədə ən yaxşı kadrları toplasaq belə, ümumi idarəetmədə dərin islahatlar aparılmasa, irəliləyiş əldə etmək olmaz. Məmnunluqla qeyd etmək lazımdır ki, son zamanlar xəstəxanaların vəziyyəti, səhiyyə sistemindəki idarəçilərin yanaşmaları, TƏBİB, icbari tibbi sığortaya daxil olan qurumlar və Səhiyyə Nazirliyi ictimai rəydə mənfi qiymətləndirilir. Vətəndaşlar əsasən də Oqtay Şirəliyevin işdən çıxarılmasını diqqətdə saxlayırdılar. Lakin məsələ bir nəfərin üzərində cəmləşməyib. Amma ictimai rəyə hörmət etmək baxımından bu addım atılıbsa, müsbət qiymətləndirir və davamlı olacağına ümid edirəm. Hansısa şəxsin bir sahədə uzun müddət işləməsi düzgün deyil. Təbii ki, istənilən vəzifəli şəxs başına qohum-əqrəbasını, dost-tanışını yığacaqsa, tabeçiliyində olan qurumlara bu yollarla təyinat edəcəksə, istər-istəməz rüşvət halları da olacaq".

**İqtisadçı təəssüflə söyləyib ki, dövlət səhiyyə idarəetməsi məmur sahibkarlığı üzərində qurulub:** "Demək olar ki, bütün dövlət səhiyyə müəssisələrinin rəhbərləri hansısa bir məmurun qohumu və yaxını olmaqla təyin olunur. Ümumiyyətlə, Azərbaycanda vəzifələrə təyinat rəqabət mühitində deyil. Tanışlıq, dostluq, rüşvət və korrupsiya ilə vəzifələrə təyin olmalar baş verir. Ona görə də istənilən vəzifəli şəxsin korrupsiyaya uğraması adi haldır. Korrupsiyanı yaradan səbəblər aradan qaldırılmalı, rəqabətli mühit təmin olunmalıdır. Təəssüf ki, səhiyyə müəssisələrinin dövlət hesabına avadanlıqlarla təmin olunmasına, kommunal və digər xərclərin, işçilərin maaşının dövlət tərəfindən ödənilməsinə baxmayaraq, uzun müddət vergidən yayınırlar. Hər bir vətəndaş bilir ki, dövlət səhiyyə müəssisələrində pulsuz heç nə yoxdur. Səhiyyə müəssisələrinin idarəetməsinə də ictimai nəzarət olmalıdır. Dövlət icbari tibbi sığortanı təmin edibsə, ayrı-seçkilik olmadan vətəndaş bu xidmətdən həm özəl, həm də dövlət xəstəxanalarında istifadə etməlidir. Seçim imkanı olduqda da rəqabət mühiti yaranır. Beləliklə, qiymətlər optimallaşır və xidmət keyfiyyəti qalxır. Bununla da ictimai rəy formalaşır. Amma dövlət xəstəxanalarının idarəçiləri mütəmadi olaraq özəl şirkətlər və klinikaların guya qiymətlərin bahalığı ilə bağlı qara piar kampaniyaları aparırlar. Bu, onların məsuliyyətsizliyindən irəli gəlir. Məqsəd də rəqabət mühitini öldürməkdir. Rəqabət mühiti yoxdursa, vətəndaş dövlət xəstəxanalarının xidmətindən yararlanmaq məcburiyyətində qalır. Beləliklə, bahalı xidmət və məsuliyyətsiz davranışla qarşılaşır".

**Yeganə Bayramova**

# Peyvəndlənmə gözlənilən effekti vermir

## Təəssüf ki, koronavirus infeksiyası hələ bir müddət bizimlə yaşayacaq

**"Artıq koronavirusun üçüncü dalğasını müşahidə etdik. Yəni bu xəstəlik dalğavari şəkildə artır, azalır. Bir dalğa arasındakı müddət isə təxminən 3-4 ay olur. Ona görə də əvvəlki dalğaları nəzərə alsaq, üç aydan sonra Azərbaycanda və bütün dünya ölkələrində təkrar koronavirus xəstələrinin sayının artmasının şahidi ola bilərik".**



Bu sözləri "Şərq"ə açıqlamasında pulmonoloq, allerqoloq Ramin Nəriman deyib. Həkim əlavə edib ki, peyvəndlənmə də müəyyən dərəcədə effekt verə bilər: "O baxımdan hesab edirəm ki, 3-4 aydan sonra istər Azərbaycanda, istərsə də digər dünya ölkələrində ya koronavirusun dalğası əvvəlkilərlə müqayisədə ya nisbətən zəif olacaq, ya da ki, olmaya bilər. Amma böyük ehtimalla olacağını düşünürəm. Çünki bir infeksion xəstəliyə insan ikinci dəfə yoluxursa, artıq bu o deməkdir ki, həmin xəstəliyə qarşı immunitet formalaşmayıb. Daimi immunitet formalaşmadığı təqdirdə insan təkrar xəstələnir. Fikrimcə, peyvənd olunan şəxslər də daimi immunitet əldə edə bilməyəcəklər. Çünki bir müddətdən sonra həmin immunitet itəcək və yenidən şəxsin xəstələnməsi baş verəcək. Onun üçün də belə düşünmək olar ki, gələcəkdə koronavirus infeksiya ilə bağlı xəstələrin sayının artmasını gözləmək olar. Bu günə qədər ki, statistika belədir ki, Azərbaycanda hardasa təxminən 320 min nəfər koronavirusa yoluxub. 470 min nəfər isə 2 dəfə peyvənd olunub. Hardasa 200 min əhalinin də xəstələndiyini və qeydiyyatdan keçmədiyini nəzərə alsaq, ümumilikdə Azərbaycanda xəstələnən, ya iki dəfə peyvənd olunanların sayı bir milyondur. Bildiyimiz kimi, Azərbaycanın 10 milyon əhalisi var. Bir milyon Azərbaycan əhalisinin 10 faizi deməkdir. Kollektiv immunitetin formalaşması üçün ən azı cəmiyyətinin 70-80 faizində immunitet olmalıdır".

**Həkim vurğulayıb ki, hələ bir müddət koronavirus infeksiyası təəssüf ki, davam edəcək:** "Bu xəstəlik belə görünür ki, ya uzun müddət, ya da ola bilsin ki, daimi davam edəcək. Ümumdünya Səhiyyə Təşkilatı da sətirarası bildirir ki, peyvənddən gözlənilən effekt alınmır. Qeyd olunur ki, peyvənd yeganə qorunma metodu deyildir. Yenə də ara məsafəsi gözləmək, maskadan istifadə etmək, şəxsi gigiyena qaydalarına riayət olunması tövsiyə olunur. Belə düşünürəm ki, hələ bir müddət koronavirus infeksiyası təəssüf ki, davam edəcək".

**Aynurə Pənahqızı**

## Reanimasiyadadır

### Arif Quliyevin durumu kritikdir



**Xəbər verdiyimiz kimi, Xalq artisti Arif Quliyev koronavirusa yoluxub. Ailəsinin sözlərinə görə, aktyorun durumu kritikdir.**

"Şərq" də sənətkarın son sağlıq durumunu öyrənmək üçün onun yaxınları ilə əlaqə saxlayıb. Qızı atasının səhhəti ilə bağlı bunları söyləyib: "Vəziyyəti ağır olaraq qalıb. Bir dəyişiklik yoxdur. Hələ reanimasiyadadır".

**Samirə**

## Daha 806 nəfər koronavirusa yoluxub

### 31 nəfər vəfat edib, 1224 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 806 yeni yoluxma faktı qeydə alınıb, 1224 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 31 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 313 812 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 280 403 nəfər müalicə olunaraq sağalıb, 4 402 nəfər vəfat edib, 29 007 aktiv xəstə sayı nəfərdir.

*Ölkədə son sutka ərzində 5 732, hazırkı dövrədək isə 3 195 268 test aparılıb.*

# Hər kəs Qarabağ havasındadır

## Keçmiş köçkünlər yurdlarına qayıtmağın sevincini yaşayır

Məcburi köçkünlər arasında Qarabağa qayıdışla bağlı onlayn-sorğu başa çatıb.

ADA Universitetindən verilən məlumata görə, işğaldan azad edilmiş ərazilərə qayıdışın səmərəli təşkili üçün repatriasiya potensialını proqnozlaşdırmaq məqsədilə keçirilən birinci sosioloji tədqiqat - onlayn-sorğunun fəaliyyəti aprelin 25-dən etibarən dayandırılıb.

Sorğuda 65 min nəfər iştirak edib, sorğu səhifəsinə baxış sayı isə 400 mini ötüb. İlkin məlumatlara əsasən, iştirakçıların 54 faizi kişilərdən, 46 faizi isə qadınlardan ibarətdir. Sorğuda iştirak edənlərin 45 faizini 40 yaşa qədər olan ölkə vətəndaşları təşkil edir. Hazırda onlayn-sorğunun nəticələri emal mərhələsindədir. Bu mərhələ yekunlaşdıqdan sonra Tədqiqat Qrupu əldə edilən məlumatların təhlilinə başlayacaq və nəticəni müvafiq dövlət qurumuna təqdim edəcək.

**Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru Həvva Məmmədova "Şərq"ə açıqlamasında qeyd etdi ki, keçmiş köçkünlər arasında keçirilmiş sorğu məskunlaşma prosesinin düzgün aparılmasını təmin edəcək:**

- Əlbəttə, yaxşı olardı ki, keçmiş köçkünlərlə sorğular canlı şəkildə, üzbəüz aparılsın. Amma hamımız bilirik ki, hazırda pandemiya şəraitidir və üzbəüz, canlı görüşlər üçün uyğun zaman deyil. Bununla belə, onlayn sorğuların keçirilməsinin özü də böyük əhəmiyyət kəsb edirdi. Dövlətimiz, cənab Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında, qəhrəman ordumuzun, igid balalarımızın şücaəti ilə torpaqlarımızı işğaldan azad etdi. Bu nə qədər böyük, əzəmətli, tarixi bir vəzifənin yerinə yetirilməsidirsə, soydaşlarımızın doğma yurdlarına qayıtması, orda





**Həvva Məmmədova: "İndi arzu edirəm ki, həmin institutda pedaqoji fəaliyyətimi davam etdirim"**

məskunlaşması bəlkə ikiqat ağıq bir vəzifədir. Dövlət çalışır ki, bu işin öhdəsindən gəlsin və bu istiqamətdə işlərə artıq başlanılıb. Həm də Qələbəmizdən dərhal sonra. Cənab Prezidentin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Qarabağ bölgəsinə səfərlərini bütün xalq izləyir. Yəni dövlət məskunlaşmanın mümkün qədər qısa zamanda reallaşması üçün çalışır. Keçmiş köçkünlər arasında sorğuların keçirilməsi də bu prosesə xidmət edən, prosesin düzgün, məqsədyönlü şəkildə aparılmasını təmin edəcək, prosesə fayda verəcək işdir. Hökumət bilməlidir ki, işğaldan azad edilmiş ərazilərdə nə qədər insan məskunlaşacaq, onların arasında qadınlar, kişilər, gənclər, uşaqlar neçə faiz təşkil edir. Statistik rəqəmlərin əldə olunması məskunlaşma, iş yerlərinin açılması, əhalinin iş yerləri ilə təmin edilməsində əhəmiyyətlidir. Azad olunmuş ərazilərdə məktəblər tikilməlidir, uşaq bağçaları olmalıdır, xəstəxana, ictimai iaşə obyektləri... Bu, nəhəng bir prosesdir. Bu prosesi kortəbii şəkildə aparmaq mümkün deyil, bunun faydası da olmazdı. Odur ki, çox doğru olaraq keçmiş köçkünlər arasında sorğular keçirildi, əhalinin vəziyyəti, əmək qabiliyyətli olanların sayı dəqiqləşdirildi.

**H.Məmmədova qeyd etdi ki, köçkünlərə edilən hər bir zəng onların sevincinə səbəb olub:**

- Mən bilirəm ki, köçkün ailələr bu zənglərdən necə sevinib, necə razı qalıblar. Çünki doğma yurduna, elinə-obasına, hansı vəziyyətdə olmasının fərqi yoxdur, dağılmış, viran qalmış vəziyyətdə olsa da, qayıtmaq istəməyən qarabağlı, şəxsən mən tanımıram. İnanmaram da ki, belə bir qarabağlı var. İşğaldan azad olunmuş ərazilərə insanlarımızın necə can atdığını biz Aprel döyüşləri zamanı azad edilən Cocuq Mərcanlının timsalında da gördük. İndi də eyni vəziyyətdir. Baxın, insanlar biləbilə ki, ərazilər minalanıb, mənfur qonşularımız hər addımbaşı mina basdırıblar, yenə də doğma yurdlarını, kəndlərini, obalarını görmək, ziyarət etmək üçün ora can atırdılar. Nə qədər vətəndaşımız minaya düşərək həlak oldu. Təkcə mülki əhali deyil, hərbçilər arasında da həlak olanlar var. Ermənistan minalanmış ərazilərin xəritəsini verməməklə növbəti hərbi və insanlığa qarşı qəddar cinayət törədir. Biz bu faktı daim gündəmdə saxlamalı və dünyaya səs salmalıyıq. Ermənistan bu əməlinə görə hərbi tribunala verilməlidir. Məskunlaşma məsələsinə gəlincə, cənab Prezident də çıxışlarında bildirir ki, köçürülmə prosesi könüllüdür. Heç kim məcbur edilməyəcək ki, işğaldan azad edilmiş ərazilərə köçsün. Bu, cənab Prezidentin ədalətli və demokratik düşüncə tərzinin təsdiqidir. Amma biz xalqımızı tanıyırıq. Keçmiş köçkünlərin hamısı doğma yurda qayıdacaq. Mənim anam, ruhu candan ayrılanadək "Şuşa, Şuşa", dedi. Mənə vəsiyyət edirdi ki, rəhmətə gedəndə onu Şuşada dəfn edim. Dayım, xalam Bakıda məskunlaşmışdılar, amma ürəkləri Şuşada qalmışdı. Doğmalarımın düşüncəsi bu idi ki, sanki Bakıda müvəqqəti dəfn edilirlər, mütləq Şuşa torpağında əbədi uyumalıdırlar. Yəni bizim xalqda torpağa belə bir bağlılıq var. Ona görə də mən qəti əminəm ki, bütün keçmiş köçkünlər doğma yurdlarına qayıdacaq, orada yaşayıb, işləyəcəklər. Bu saat hətta Bakı sakinləri də Qarabağa gedib orada torpaq sahəsinə malik olmaq, ev tikmək istəyirlər. Orda xaotik bir vəziyyət yaransa, yerli sakinlərə torpaq çatmaz. Ona görə də əhali ilə bağlı hökumətin əlində dəqiq statistika olmalıdır.

**H.Məmmədova bir arzusunu da bildirdi:**

- Arzum budur ki, Xankəndidə 1970-80-ci illərdə fəaliyyət göstərmiş Xankəndi Pedaqoji İnstitutu yenidən bərpa edilsin. Bu İnstitut ulu öndər Heydər Əliyevin göstərişi ilə 1971-ci ildə o zaman Bakıdakı Pedaqoji İnstitutun filialı olaraq açıldı. Amma 1974-cü ildə sərbəst, müstəqil İnstitut oldu. Mən 1976-cı ildə həmin instituta daxil olmuşam. İndi arzu edirəm ki, həmin institutda pedaqoji fəaliyyətimi davam etdirim. İnanıram ki, biz Xankəndinə də qayıdacağıq və mən də yenə Xankəndi Pedaqoji İnstitutunda - bəlkə artıq Universitet olacaq, dərs deyəcəm.

# Siyasi əməkdaşlıq qırılma nöqtəsinə gəlib çatıb



Regionda Türkiyəni əvəz edəcək Yunanıstana “stavka” etmək istəyirlər

“Qarabağ müharibəsindən sonra, ABŞ regionda xalqlar arasında sülhün təşviqinə yox, düşmənliyə gətirib çıxaran siyasətə üstünlük verdi”

**”ABŞ Prezidenti Co Baydenin qondarma ”erməni soyqırımı” ifadəsini işlətməsi, Vaşinqtonun onu rəsmən tanıması deyil. 1982-ci ildə ABŞ prezidenti Reyqan da belə bir ifadə işlətmişdi. Amma bunun Ankara üçün hüquqi bir çəkisi olmadı. Gələcəkdə də olmayacaq”.**

*Bu sözləri MCP sədrinin müavini, politoloq Məhəmməd Əsədullazadə deyib. M.Əsədullazadə ”Şərq”ə açıqlamasında Vaşinqtonla Ankara arasındakı münasibətlərin kəskinləşəcəyini dedi:* ”Bayden administrasiyası Türkiyəni regionda yeni tərəfdaş kimi görmür. Xüsusilə Pprezident Ərdoğan hakimiyyətinin müstəqil siyasəti belə bir ifadə işlətməsinə gətirib çıxardı. Bu, təkcə Baydenin erməni lobbisinin təsiri ilə deyil, son aylarda Aralıq dənizində Yunanıstan-Türkiyə arasında davam edən siyasi-hərbi böhran fonunda Vaşinqtonun Afinanı dəstəkləməsindən irəli gəlir. Bayden seçki marafonunda Ərdoğanı hərbi çevrilişlə devirməyin mümkünlüyünü qeyd etmişdi.

ABŞ son illərdə PKK terror təşkilatının Suriya qolu YPG-ni silahlandırır, Ankaraya sanksiyalar tətbiq edir, F-35 proqramından çıxarır. Bütün problemler Vaşinqtondan qaynaqlanır. Regionda Türkiyəni əvəz edəcək Yunanıstana ”stavka” edəcəklər. Göründüyü kimi, ABŞ-la Türkiyə arasında ciddi problemlər var. Bu problemlər iki müttəfiq arasında siyasi əməkdaşlığın qırılma nöqtəsinə gəlib çıxıb”.

**Onun sözlərinə görə, bundan sonra tərəflər arasında siyasi böhran dərinləşə bilər:** ”Gələcəkdə Bayden administrasiyası Türkiyəyə qarşı yalnız təzyiq siyasəti həyata keçirəcək. Paralel olaraq Ağ Evin Azərbaycana siyasətində də dəyişiklik olacaq. Bayden administrasiyası Yaxın Şərqdə Türkiyə və Cənubi Qafqazda Azərbaycan kimi aparıcı iki ölkə ilə münasibətlərə zərbə vurdu.

Bir neçə gündən sonra Pentaqondan heyət Ankaraya səfər edib, iki ölkə arasında mövcud problemləri yoluna qoymağa çalışacaq. Bundan sonra Türkiyə-Rusiya yaxınlaşması da olmayacaq. Onsuz da Ankara və Moskva əməkdaşlığın mümkün olunanı ediblər. Hər iki tərəfin toqquşduğu maraqlar var. Vaşinqtonun Ankaraya qarşı bu siyasəti Türkiyəni daha da gücləndirəcək. ABŞ Prezidenti Baydenin ”erməni soyqırımı” ifadəsini işlətməsini pisləyirik.

Bu, Ermənistan-Azərbaycan və Türkiyə-Ermənistan arasında mümkün əlaqələrin qurulmasına zərbə vurmaqdır. Qarabağ müharibəsindən sonra, ABŞ regionda xalqlar arasında sülhün təşviqinə yox, düşmənliyə gətirib çıxaran siyasətə üstünlük verdi”.

**Kənan**

## Aranı qarışdıran erməni diasporudur

### ABŞ və Türkiyə arasında siyasi böhran tezliklə qaydasına düşəcək

**Məlum olduğu kimi, bu günlərdə ABŞ Prezidenti Co Bayden qondarma erməni soyqırımını tanıdı. O, sözügedən ifadəni işlətməklə həm tarixi təhrif etdi, həm də diplomatik münasibətlərə zərbə vurdu.**

Bundan sonra ABŞ-la Azərbaycan və Türkiyə arasındakı münasibətlərin necə inkişaf edəcəyi isə çoxlarını düşündürür.

**Amerikalı siyasi analitik Pol Qoble mübahisəli məsələ barədə proqnozlarını ”Şərq”lə bölüşdü:** ”Tərəflər arasında bəzi problemlər olacaq. Amma tədricən münasibətlər yenidən qaydasına düşəcək. Üstəlik, həm ABŞ-dakı, həm də Türkiyədəki bəzi rəsmi şəxslər siyasi böhranda erməni diasporunun rolunun olduğunu başa düşəcək və bunu dilə gətirəcəklər”.

**Kənan**

## İki senari hazırlanıb

### Rusiya neft hasilatını artırır



**Rusiya 2021-ci ildə 512,5 milyon ton neft hasil etməyi planlaşdırır. Bu barədə ”Şərq” TASS-a istinadən xəbər verir.**

Bildirilir ki, İqtisadi İnkişaf Nazirliyi cari ildə neft hasilatı üçün iki senari hazırlayıb. Onların hər ikisinin göstəriciləri təxminən üst-üstə düşür. Qarşıdakı illərdə neft hasilatının daha da artırılacağı gözlənilir.

**Kənan**

# ABŞ ciddi strateji yanlışlığa yol verdi

## Ağ Ev yenidən aqressiv xarici siyasət kursuna dönür

"ABŞ Prezidenti Co Baydenin 1915-ci il hadisələri ilə bağlı səsləndirdiyi bəyanatda "soyqırımı" sözünün əks olunması təkcə tarixin təhrif olunması deyil. Bu, eyni zamanda, ümumbəşəri dəyərlərə və beynəlxalq hüquq normalarına zidd addımdır".

Bu fikirləri "Şərq"ə açıqlamasında politoloq Nurlan Qələndərli deyib. Onun sözlərinə görə, Co Bayden "soyqırımı" anlayışından istifadə etməklə ciddi tarixi və strateji səhvə yol verib. O, siyasi-diplomatik müstəvidə tamamilə yanlış taktiki gediş edib:

”Erməni məsələsi” adlandırılan süni gündəm mövzusu qondarma iddialardan ibarətdir. Bəzi geopolitik mərkəzlər tərəfindən ”məzlum xalq” obrazında dünya ictimaiyyətinə təqdim edilən ermənilərin ”soyqırımı” cəfəngiyyatı üzərindən apardıqları təbliğat timsah göz yaşlarından başqa bir şey deyil. Məsələnin tarixi köklərinə nəzər saldıqda 1915-ci il hadisələrinin məhz erməni cinayətkarlığı ilə bağlılığı, soyqırımına məruz qalan tərəfin isə elə həmin dövrdə Anadoluda və Cənubi Qafqazda yaşayan azərbaycanlılar, türklər olduğu üzə çıxır. Elə sonrakı dövrlərdə də soyqırımı və terror aktları həm Azərbaycan xalqına, həm də türklərə qarşı məhz ermənilər tərəfindən törədilib. Yəni faktlar ermənilərin və onlardan istifadə edən imperialist mərkəzlərin iddialarının tarixi əsaslarının olmadığını göstərir”.

**Nurlan Qələndərli deyib ki, ABŞ Prezidentinin bu addımı öz həm ölkəsinin də milli maraqlarına zidd olduğuna görə ciddi strateji yanlışlıqdır:** ”Baydenin Prezident kimi fəaliyyətə başlamasından sonra verdiyi bəyanatlar, atılan addımlar Birləşmiş Ştatların geosiyasət kursunda paradiqma dəyişikliyinin olduğunu göstərir. Bu dəyişikliklər, təəssüf ki, neqativ kontekstdə özünü göstərir. Ağ Ev yenidən aqressiv xarici siyasət həyata keçirməyə, ikitərəfli münasibətlərdə qarşılıqlı hörmət və bərabərhüquqlu əməkdaşlıq prinsiplərini aşkar surətdə gözardı etməyə başlayıb. Hazırkı strateji kurs konstruktiv əməkdaşlığı istisna edən, təzyiq vasitəsilə milli aktorları güzəştə vadar etməyə çalışan yanaşmanı özündə ehtiva edir. Məhz qondarma ”soyqırımı” məsələsinin də bu formada aktuallaşdırılması regional supergüc olan Türkiyəyə qarşı geostrateji pressinq məqsədinə xidmət edir. Görünən odur ki, qardaş Türkiyə Cümhuriyyətinin beynəlxalq münasibətlər sistemində rolunun artması, Şərqi Aralıqda, Yaxın Şərqdə mövqeyinin möhkəmlənməsi, həmçinin Cənubi Qafqazda yaranmış yeni reallıqlar fonunda əməkdaşlıq imkanlarının genişlənməsi Vaşinqton tərəfindən ”xoşagəlməz hal” kimi qiymətləndirilir. Rusiya-Türkiyə cəbhəsində müşahidə olunan strateji yaxınlaşmanın regional təhlükəsizliyə müsbət təsirləri ilə bağlı detalları da ABŞ-ın narahatlıqla qarşıladığı bəlli olur”.



**Politoloq Baydenin bu addımının həm də erməni ictimai rəyində anti-Rusiya meyillərini artırmağa hesablandığını bildirib:** ”Bu, həm Birləşmiş Ştatların ”ermənilərin yanında olduğu” görüntüsü yaratmaq, həm də Ermənistanın acınacaqlı məğlubiyyətinin səbəbkarı kimi Kremli göstərmək hədəfinə xidmət edir. Fakt budur ki, regional təcrid vəziyyətində olan Ermənistan bölgədə hər hansı bir önəm daşımır və geostrateji reallıqlara təsir etmək imkanlarına sahib deyil. Sadəcə, Vaşinqton regionda Rusiyaya təzyiq göstərmək üçün yeni metodlardan istifadə etməyə çalışır, o cümlədən qeyd etdiyimiz kimi, erməni ictimai rəyinə hesablanmış gedişlər edir. Burada məqsəd həm də məğlub ölkədəki qərbpərəst qüvvələrin siyasi manevr imkanlarını genişləndirmək və onları seçkilərdə avantajlı hala gətirməkdir. Baydenin məlum bəyanatının siyasi tərcüməsi həm də onu deməyə əsas verir ki, Vaşinqton Cənubi Qafqaza yeni geostrateji müdaxilə etməyə çalışır. Görünən odur ki, bu bölgədə yeni çoxtərəfli əməkdaşlıq platformasının yaradılması, sülh və təhlükəsizlik şəraitində regional inkişafın təmin olunması Ağ Evi öz məhdud və birtərəfli maraqlarına görə məmnun etmir. Ona görə də həm Türkiyəyə, həm Rusiyaya təzyiq göstərməklə, həm də erməni amilindən istifadə etməklə prosesə müəyyən qədər mane olmağa çalışır. Amma bu, praqmatik yanaşma deyil və ABŞ-ın öz maraqları üçün də yaxşı perspektiv vəd etmir. Nəzərə alınmalıdır ki, regional proseslər məhz bölgə aktorlarının geosiyasi iradəsi əsasında tənzimlənir və Vaşinqtonun hazırda proseslərin gedişinə həlledici təsir etmək imkanları yoxdur”.

*N.Qələndərli əlavə edib ki, Baydenin ”soyqırımı” ifadəsindən istifadə etməklə yaratdığı situasiya göstərir ki, Qərb diplomatiyası hələ də ”sivilizasiyaların toqquşması” konsepsiyasına əsaslanan siyasi stereotipdən qurtula bilmir:* ”Əlbəttə, belə addımlar yalnız bumeranq effekti ilə nəticələnə bilər. Baydenin bəyanatı hüquqi qüvvəyə malik deyil, o, sadəcə olaraq siyasi bəyanatdır, beynəlxalq hüquq normaları əsasında hər hansı bir məsuliyyət yaratmır. Bundan sonra erməniрərəst dairələr tərəfindən məqsədli şəkildə ortaya atılan təzminat məsələsi isə ictimai rəyi yanıltmaq və psixoloji təsir göstərmək cəhdidir. Təzminat ödəməli olan tərəf qardaş Türkiyə deyil, məhz 30 ilə yaxın Azərbaycan torpaqlarını işğal altında saxlayan, ölkəmizin həmin ərazidəki sərvətlərini bəzi transmilli şirkətlərlə birlikdə qeyri-qanuni şəkildə mənimsəyən və cinayət törədən Ermənistandır. Bu ölkənin vurduğu ziyanın xarici mütəxəssislərin iştirakı ilə hesablanması prosesi davam etdirilir və qiymətləndirmə başa çatdırılandan sonra təzminatın ödənilməsi üçün Ermənistan beynəlxalq məhkəmələrə veriləcək. Amma görünən odur ki, bu məsələ Ermənistan və erməni lobbi-diaspor təşkilatları ilə yanaşı, bəzi ölkələrin erməniрərəst siyasi dairələrini də ciddi şəkildə narahat edir”.

**Aynurə Pənahqızı**

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

Bu gün Azərbaycanda kifayət edəcək sayda yazılı mətbu orqanı var. Bunların böyük əksəriyyəti Bakı şəhərində fəaliyyət göstərir, çox az hissəsi isə regionların payına düşür. Regionlarda fəaliyyət göstərən mətbu orqanlarımız rəsmi qəzetlərdir. Təbii ki, əyalətin müstəqil qəzetləri fəaliyyətlərində ilk olaraq regionun tarixi, mədəniyyəti, adət-ənənəsi, əhalinin məşğuliyyəti, ictimai-siyasi, sosial uğurları və problemlərinin təbliği üzərində qurmalıdırlar.




# 100 yaşlı "Şəfəq"...

## Azərbaycanda ilk region mətbuatı sayılan bu orqanın öz inkişaf yolu olub

Bu bir həqiqətdir ki, heç bir nəşr rayon qəzeti qədər əhatə etdiyi bölgənin mənzərəsini canlandırmaq imkanına malik deyil. Etiraf edək ki, rayon qəzetlərinin paytaxtda nəşr olunan qəzetlərlə müqayisədə çətinlikləri daha çoxdur. Bu səbəbdəndir ki, bir çox bölgə qəzetləri nəşrlərini dayandırıblar. Doğrudur, bu günləri internet sərhədsizdir. Ucqar kənddə də internetə qoşulub "isti" informasiyalar almaq mümkündü. Amma informasiyanı kim yayır, necə yayır, nə məqsədlə yayır, bunlar da böyük əhəmiyyət daşıyır. Bu mənada paytaxt öz yerində, regionlarda da etibarlı informasiya mənbəyinə ehtiyac var.

Uzun ömürlü region qəzetlərimizdən biri də "Şəfəq" qəzetidir. Bir əsrlik tarixə malik olan "Şəfəq" qəzetinin tarixinə qısa nəzər salaq. Qubanın ilk rəsmi, həftəlik nəşr olunan mətbu orqanı "Şəfəq" qəzeti 1921-ci ilin aprel ayından fəaliyyətə başlayıb. Azərbaycanda ilk rayon mətbuat orqanı olub. Həmin dövrlərdə qəzet bir neçə səhifə həftəlik nəşr olunurdu. Qəzetin ilk adı "Əxbar" olub. Siyasi ideologiyaya görə qəzetin adı bir neçə dəfə dəyişib. "Xəbər", sonra " Şəfəq" adlanıb. Hazırda "Şəfəq" adı ilə nəşr olunur. Əslində sual yarana bilər ki, niyə ilk dəfə qəzet Qubada yaranıb? Məlum olduğu kimi, Quba qəzza komitəsi kimi fəaliyyət göstərib. Komitədən Qasım İsmayılovun başçılığı ilə bir qrup nümayəndə heyəti Leninlə görüşməyə gedir, ona sovqat aparırlar. Lenin isə Qubaya mətbəə bağışlayır. Bunun da Qubada yalnız jurnalistika yox, həm də poliqrafiya sahəsində sürətli inkişaf başlıyır. 1991-ci illərdə qəzetin nüfuzu, məhsuldarlığı və populyarlığı kifayət qədər idi. Həmin dövrdə qəzet həftənin cüt günləri olmaqla həftədə 3 dəfə nəşr olunurdu və 10 min tirajla çıxırdı. "Şəfəq" qəzetinin mətbuat tarixində öz ənənəsi olub. Burada oxuculara yalnız yerli xəbərləri deyil, dünyada baş verən hadisələr barədə də xəbərlər verilirdi. Lakin Leninin bağışladığı çap maşını muzeyə təhvil verilir, mətbəə ləğv edilib. Əvəzində redaksiyaya bilgisayar, "Niva" markalı avtomobil bağışlanılır. Beləliklə, bir vaxtlar həftədə 3 dəfə 10 min tirajla çıxan qəzet sonradan bir çox çətinliklərlə üzüzə qalır. Ayda cəmi 2-3 dəfə çap olunur.

"Şəfəq" qəzeti kimi bir çox region mətbu orqanlarımız var ki, bu və ya digər səbəbdən fəaliyyətlərini dayandırıb. Yaxud da ki, ayda cəmi 2-3 dəfə çıxmaqla kifayətlənirlər. Bir çox ekspertlər qeyd edir ki, regional media orqanları müxtəlif ərazilərdə ictimai rəyin formalaşmasına yardım etməklə ictimai mühitin həmin ərazi üçün vacib əhəmiyyət daşıyan hadisə və prosesləri, o cümlədən siyasi xadimlərin fəaliyyətinə nəzarətin həyata keçirilməsində birləşdirici rol oynayır. Bununla da, demokratik islahatların aparılması üçün əlverişli zəmin formalaşdırırlar. Ekspertlər region mətbuatının üç əsas probleminin olduğunu qeyd edirlər. Onlar hesab edir ki, bunlardan birincisi yerlərdə mətbuatın çapı və fəaliyyətinə olan ciddi maneələrdir. İkinci səbəb maddi- texniki bazanın olmamasıdır. Çünki rayonların heç birində normal mətbəə yoxdur ki, məsul şəxslər qəzetləri çap etsinlər. Üçüncüsü, kadr məsələsidir. Bu gün əksər region mətbuatında yalnız yaşlılar fəaliyyət göstərirlər. Düzdür, dövlətimiz tərəfindən regional medianın dirçəldilməsi baxımından bir sıra zəruri addımlar atılmaqdadır. Heç şübhəsiz, işğaldan azad edilmiş ərazilərimizdə quruculuq işləri başa çatdıqdan və əhalinin bölgəyə köçü başladıqdan sonra regional media orqanları da paralel fəaliyyətə başlayacaq. Zamanla həm yeni mətbuat qurumları meydana çıxacaq, həm də işğaldan əvvəl mövcud olmuş nüfuzlu KİV-lərin bərpası prosesi başlayacaq. Sevindirici haldır ki, yaxın vaxtlarda regional mətbu orqanımız olmuş və 1931-ci ildə Füzulidə çapa başlayan "Araz" qəzetinin redaksiyası bərpa ediləcək. Bununla da heç şübhəsiz ki, zamanla həm yeni mətbuat qurumları meydana çıxacaq, həm də işğaldan əvvəl mövcud olmuş nüfuzlu KİV-lərin bərpası prosesi başlayacaq. Ekspertlərə görə, yeni reallıqlar, informasiya siyasəti və Qarabağın yenidən dirçəldilməsi baxımından bölgədə müxtəlif media orqanlarının fəaliyyəti olduqca önəmli və zəruridir. Ümumiyyətlə, bütün bölgələrdə əyalət mətbu orqanlarının olması zəruridir. Çünki Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabi vaxtilə deyirdi ki, hər bir vilayətin qəzeti həmin vilayətin aynasıdır. Bəs bu gün regionlarda çıxan bir çox qəzetlərimiz həmin bölgənin aynası ola bilirmi? Ümumiyyətlə, region mətbuatının vəziyyəti hansı durumdadır?

*"Qəzetlər tarixdir, salnamədir. Ayrıca bölgə mətbuatının inkişaf etdirilməsiylə bağlı ciddi proqram olmalıdır"*

**"Şərq" olaraq bu sualları mətbuat nümayəndələrinə ünvanladıq. Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin professoru Qulu Məhərrəmli "Şərq"ə açıqlamasında qeyd edib ki, ümumilikdə region mətbuatımızın durumu o qədər ürəkaçan vəziyyətdə deyil.** O vurğulayıb ki, bu günləri bölgələrdə yayım demək olar ki, sıfır səviyyəsindədir: "Bildiyimiz kimi, bu yaxınlarda Qubada "Şəfəq" qəzetinin 100 illik yaşı qeyd olundu. Təbii ki, bu bizi çox sevindirir. Qeyd edim ki, "Şəfəq" qəzetinin mətbuat tariximizdə öz ənənəsi olub. Vaxtilə qəzetin nüfuzu, məhsuldarlığı və populyarlığı kifayət böyük olub. Lakin internetin inkişaf etdiyi bir şəraitdə bölgə və region mətbuatı anlayışının özü belə kövrəkləşir. Ancaq əyalət mətbuatına bu cür münasibəti düzgün hesab etmirəm".

*Q.Məhərrəmli qeyd edib ki, internetə ciddi və mötəbər arxiv kimi güvənmək olmur:* "Hesab edirəm ki, regionlarda çıxan qəzetlərin əsas işi bu bölgənin problemlərini, ona aid olan xəbərləri və nöqsanları göstərməkdir. Yəni insanları bu barədə məlumatlandırmaq və onları bölgədə gedən proseslərlə tanış etməkdir. Yəni yaxşını, pisi, ağı qaranı və s. bunların hamısını açıq şəkildə göstərməkdir. Fikrimcə, belə olduğu halda insanlar həmin qəzetin, media qurumunun varlığını hiss edəcək. Buna misal olaraq, bu günləri Masallı rayonunun "Cənub xəbərləri" qəzetinin fəaliyyətindən danışmaq olar. Həm qəzet, həm də sayt kimi xeyli fəaldır. "Cənub xəbərləri"nin baş redaktoru Zahir Əmənovun fəaliyyətini yüksək qiymətləndirirəm. Bu yaxınlarda qəzetin internet televiziyası da fəaliyyətə başladı. Burada bölgənin problemləri geniş şəkildə işıqlandırılır. Təbii ki, bunlar müsbət addımlardır. Lakin çox təəssüf ki, bəzi bölgələrdə qəzetlərimiz icra hakimiyyəti orqanları tərəfindən maliyyələşdirilir. Həmin qəzetlər də icra hakimiyyətinin şəkillərinə və məlumatlarına geniş yer ayırırlar. Təbii ki, bu qəzet deyil, bu, təbliğat vasitəsidir. Mətbuata bu cür yanaşma yanlışdır. Bu baxımdan biz "Şəfəq" qəzetinin yüz illiyini tarixi hadisə kimi qeyd edirik. Amma və lakin region mətbuatı çox ciddi şəkildə acınacaqlı durumdadır. Bölgələrə qəzetlər getmir, yayım işi sıfır vəziyyətindədir. Təbii ki, ilk növbədə o işlərin canlandırılmasına ehtiyac var. Çox zaman hesab edirlər ki, yerlərdə internet varsa, qəzetə ehtiyac yoxdur. Amma qeyd edim ki, bunların hər birinin özünəməxsus yeri var. Qəzetlər tarixdir, salnamədir. Bunlar tarixin yaddaşına köçən hadisələrdir. İnternetə ciddi və mötəbər arxiv kimi güvənmək olmaz. Amma qəzetlər qalır və sabah onu araşdıranda bölgədəki hadisələri, prosesləri görmək mümkündür. Ona görə də hesab edirəm ki, bizdə ayrıca bölgə mətbuatının inkişaf etdirilməsiylə bağlı ciddi proqram olmalıdır".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Mətbuat Şurasının İdarə Heyətinin üzvü Azər Həsrət "Şərq" açıqlamasında bildirib ki, bu günləri bölgədəki media orqanlarının imkanları o qədər də az deyil.** Ekspert hesab edir ki, əgər yerli mətbuat orqanları ənənəvi xəbərçilikdən imtina etsələr və daha çox yerli məsələlərə köklənsələr, o zaman onların uzunmüddətliyi təmin ediləcək: "Fikrimcə, hazırda mətbuatın xilası üçün ən unikal seçim lokal və yerli xəbərlərə üstünlük verilməsidir. Bu baxımdan da bölgədəki medianın imkanları az deyil. Əslində qalanda biz baxırıq ki, bəzən adicə bir kəndin xəbərləri həmin kənddə çox geniş tirajlanır. Belə deyək ki, ağızdan-ağıza keçir. Hətta sosial media üzərindən həmin xəbərlər paylaşılır. Bu da ondan xəbər verir ki, insanlar qlobal məsələlərdən daha çox yerli məsələlərə diqqət ayırırlar".

**A.Həsrət əlavə edib ki, regionlarda əhalini daha çox sosial və yerli məsələlər narahat edir:** "O baxımdan düşünürəm ki, "Şəfəq" qəzetinin də yaşamaq şansı çox yüksəkdir. Yəni daha çox yerli xəbərlərə köklənən bir qəzet olaraq, əlbəttə ki, uğur qazanmaq üçün imkanları tükənməyib. Bu baxımdan hesab edirəm ki, təkcə Qubadakı qəzet deyil, bütün bölgələrdəki qəzetlər ənənəvi dediyimiz xəbərçilikdən imtina etməlidir. Onların daha çox yerli məsələlərə köklənməsinin məqsədəuyğun olduğunu hesab edirəm. Çünki bu, onların yaşarlılığını təmin edəcək. Bu bir faktdır ki, bütün dünyada yerli xəbərlərə üstünlük verən media uğur qazanır və qazanmağa da davam edir. Təbii ki, burda Azərbaycan da istisna deyil. Hesab edirəm ki, regionlarda ictimai, siyasi, eyni zamanda yerli əhəmiyyətli sosial problemlərə yönəlik media fəaliyyət göstərməlidir".

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Pediatr valideynlərə səsləndi

## Uşaqların sağlamlığı üçün immunlaşdırma vacibdir



Ölkədə "İmmunlaşdırma həftəsi" başlayır. Səhiyyə Nazirliyinin məlumatına görə, "Respublikada "İmmunlaşdırma həftəsi"nin keçirilməsi barədə" əmr imzalanıb. Əmr Ümumdünya Səhiyyə Təşkilatının təşəbbüsü ilə 2006-cı ildən etibarən Avropa regionunda keçirilən "İmmunlaşdırma həftəsi"nin ölkəmizdə də yüksək səviyyədə təşkili məqsədini daşıyır.

Əmrdə 2021-ci ilin aprel ayının 26-sı mayın 2-si tarixlərində Respublikanın bütün şəhər və rayonlarında "İmmunlaşdırma həftəsi" nin təşkili Səhiyyə Nazirliyinin tibbi idarə və müəssisələrinin rəhbərlərinə tapşırılır, digər tibb idarə və müəssisələrin rəhbərlərinə tövsiyə edilir. Hər hansı səbəbə görə immunlaşdırmadan kənarda qalan uşaqların "İmmunlaşdırma həftəsi" ərzində peyvəndlərə cəlb edilməsi, COVID-19 infeksiyasına görə epidemioloji vəziyyəti nəzərə alaraq uşaqların kütləvi axınının qarşısının alınması məqsədilə onların peyvəndlərə növbəli dəvət olunması, əhalinin bu barədə maarifləndirilməsinin təminatı kimi mühüm məsələlər də sənəddə öz əksini tapıb.

"İmmunlaşdırma həftəsi"ndə uşaqlar COVİD-19 əleyhinə də peyvənd olunacaqmı?

**Bu barədə "Şərq"ə məlumat verən pediatr Vaqif Qarayev qeyd etdi ki, immunlaşdırma həftəsinin "COVİD" peyvəndinə aidiyyəti yoxdur:**

- Bu, uşaqları infeksiyalardan qorumaq üçündür. ÜST hər dəfə 1 həftəni "immunlaşdırma" elan edir. Məqsəd əhali arasında maarifləndirməni gücləndirmək və əhalini aktivləşdirməkdir. İmmunlaşdırma həftələri həmişə olub. Sadəcə, indi COVİD aranı qatdı, bu məsələ də sanki arxa plana keçdi. Amma uşaqların sağlamlığı üçün immunlaşdırma vacibdir. İmmunlaşdırma həftəsi uşaqların yoluxucu xəstəliklərə qarşı peyvənd olunmasıdır. Məsələn, qızılca, göyöskürək, tetanus ÜST-ün peyvənd təqvimi olduğu kimi, hər bir ölkənin də öz peyvənd təqvimi var. Eləcə də Azərbaycanın. Təqvimdə qeyd edilir, körpə anadan olandan neçə saat, neçə gün sonra hansı peyvəndlər vurulmalıdır, hansı ayında hansı peyvəndlər, beləcə müəyyən yaş həddinədək. Bəzən valideynlər peyvəndləməyə dırnaqarası baxır, amma bu, çox vacib məsələdir. Qızılca çox ağır infeksiyadı. Rumıniyada qızılca tüğyan edirdi. ÜST də qərara aldı ki, bu ölkəyə yardım edilməyəcək, çünki qızılca əleyhinə peyvəndləməyə səhlənkar yanaşmışdılar. Ukraynada da qızılca alovlanmışdı, amma onların peyvənd almağa vəsaitləri olmamışdı. Xüsusilə də Donbassda qızılca "yandırıb-yaxdı". Dediyim odur ki, valideynlər uşaqları vaxtlı-vaxtında peyvənd etdirməlidir. Elə analar olub, gəlib kabinetimdə ağlayıb, göz yaşı töküblər ki, körpə "əldən gedir". Baxmışıq ki, göyöskürəkdi. Boğulma verir, uşaq nəfəs ala bilmir. Soruşmuşuq, uşaq peyvənd olunub, deyib, yox. İndi təəssüf ki, peyvənd əleyhinə kampaniya gedir. Bəziləri peyvəndin guya uşaqlarda autizm xəstəliyi yaratdığını iddia edir. Halbuki, bunun bir elmi-tibbi izahı yoxdur. Ümumiyyətlə, autizmin əmələgəlmə səbəbləri hələ müəyyənləşməyib. 2 il əvvəl Azərbaycanda qızılca xəstəliyinə yoluxma halları həddindən artıq çox idi. Amma bu, gizlədildi. 1993-94-cü illərdə uşaqlar arasında difteriya çox yayılmışdı. Hazırda ÜST, eləcə də ayrı-ayrı dövlətlər niyə COVİD əleyhinə peyvəndləmə kampaniyası aparır, çünki peyvəndlənmə ilk növbədə sanitar mədəniyyət deməkdir. Görürsünüz, İsraildə peyvəndləmə 80 faiz icra edilib artıq. Və orda artıq qapanmalar yoxdur, insanlar adi, hərzamankı həyatlarına davam edirlər. Bu mənada uşaqların müxtəlif yoluxucu xəstəliklərə qarşı peyvənd olunması vacibdir. Qaldı ki, uşaqların "COVİD" əleyhinə peyvənd olunmasına, hələ ki, dünya buna girişmir. Əldə olan vaksinlərin də uşaqlara təsiri yoxlanmayıb. Uşaqlar arasında koronavirusa yoluxma statiskası da aşağıdır deyə, uşaqların, azyaşlıların peyvənd olunmasına göstəriş yoxdur. Amma Gürcüstan 30 min uşağın yoluxduğunu bildirib, kiçik rəqəm deyil.

**"İmmunlaşdırma həftəsinin "COVİD" peyvəndinə aidiyyəti yoxdur"**

**Məlahət Rzayeva**

# Millət vəkili təklif verdi

"Fürsətdir, pandemiya bitməmiş qanunla toy və yas mərasimlərini tənzimləməliyik"



**"Açıq havada toylara icazə verilməlidir, havalar isinməyə başlayır".**

Bu təkliflə millət vəkili Razi Nurullayev çıxış edib. Deputat bildirib ki, toy və yas mərasimləri ilə bağlı qanunların qəbul olunması tez-tez gündəmə gəlir: "Bu, "Mədəniyyət haqqında" qanunla tənzimlənə bilər. Yas mərasimlərində daim ciddi israfçılıq olur. Pandemiya bitəndən sonra bu, yenə davam edəcək. Pandemiya bitməmiş bu məsələləri tənzimləməliyik. Heç kim ehsan yarışına girməməlidir. Pandemiyadan əvvəl istər toy, istərsə də yas mərasimlərində sona qədər oturmaq olmurdu. Bu sahəyə nizam-intizam gətirməyin zamanıdır. İndi yaxşı fürsət yaranır ki, biz bunu edək".

**İsmayıl**

# Bakıda tikintidə kran aşıb

İki fəhlədən biri hadisə yerində ölüb



**Bakıda fəhlə faciəvi şəkildə ölüb. APA xəbər verir ki, hadisə paytaxtın Səbail rayonu, Neftçi Qurban küçəsində tikilməkdə olan çoxmərtəbəli binada baş verib.**

Belə ki, kranın aşması nəticəsində kranda olan iki fəhlədən biri hadisə yerində ölüb, digəri isə ağır yaralanıb.

Faktla bağlı Səbail rayon Prokurorluğunda araşdırma aparılır.

# Azad reklam bazarı yoxdur

## Pandemiya ən çox region mətbuatına zərbə vurub

"Son illər Azərbaycanın regionlarında da internet media inkişaf etməyə başlayıb. Lakin regionda çalışmaq, oxucuları informasiya ilə daim təmin etmək bir o qədər asan deyil. Buna baxmayaraq, 9 ilə yaxındır Xeberle.com əməkdaşları Sumqayıtda bu işin öhdəsindən gəlməyə çalışır. Şübhəsiz ki, informasiya almaq, informasiyanı dəqiqləşdirməklə bağlı bir sıra problemlər yaranır".

*Bu sözləri "Şərq"ə açıqlamasında Sumqayıtın regional informasiya orqanı olan Xeberle.com-un həmtəsisçisi Elnur Ağayev deyib. O vurğulayıb ki, bir çox yerli dövlət qurumları hələ də informasiya verməyə borclu olduqlarının mahiyyətini başa düşmür, yaxud düşmək istəmirlər:* "Hansısa bir məsələ ilə bağlı edilən zənglər cavabsız qalır, bəzən süründürməçilik hallarına yol verilir. Kimisə tənqid edirsən, ya "ortaq dost"a xətirhörmət üçün zəng elətdirir, yaxud da birbaşa əlaqə saxlayaraq buna qəti etirazını bildirir. Bəli, bu problemlərdən biri də tənqidə dözümsüzlükdür. Regionlarda ayrı-ayrı məmurlar mətbuata qarşı dözümsüzlük nümayiş etdirirlər. Hətta bəzi media orqanları müxtəlif məmurlar tərəfindən məhkəməyə verilir, yaxud təzyiqlərlə üzləşirlər. Bu, xoşagəlməz haldır, söz, ifadə azadlığının təmin olunması istiqamətində yeni-yeni uğurlar əldə etmək istəyən ölkəyə başucalığı gətirmir. Xoşagəlməz hal həm də odur ki, ictimai fiqur olan bir sıra məmurlar media orqanlarının onların fəaliyyətini haqlı, obyektiv tənqid etməsi ilə barışa bilmirlər".



*E.Ağayev qeyd edib ki, bəzi yerli orqanları çıxmaq şərti ilə dövlət idarələrinin saytları daim yenilənmir və bu da bəzi məlumatların oradan əldə edilməsində çətinliklər yaradır:* "Dəfələrlə qeyd olunub, medianın əsas gəlir yeri reklam bazarıdır. Reklamlarla bağlı problemlər daimidir, rəqabət zəifdir deyə, reklam verənlərin sayı da az olur. Üstəlik, bəziləri "məni dilə-dişə salma", "filan dövlət orqanı eşidər xəbər tutar, sonra mənə əlavə problemlər yaranar" və s. kimi bəhanələrlə reklam verməkdən qaçırlar. Vətəndaşlar da bəzən şikayətlərini dilə gətirməkdən ehtiyat edir, çəkinirlər. İki ilə yaxın davam edən pandemiya şəraiti də ən çox regional mətbuata zərbə vurdu. Qapanmalar nəticəsində biznes obyektlərinin tam gücündə işləməməsi regional mətbuatın əsas maliyyə mənbəyi olan reklam bazarına çox mənfi təsir göstərdi. Hesab edirəm ki, dövlət xüsusən regional mətbuatın inkişafında, kəmiyyət dəyişikliklərin keyfiyyət dəyişikliklərinə keçməsində maraqlı olmalıdır. Media öncə regionlarda güclü olmalıdır, buradan obyektiv və dolğun xəbərlər çatdırmalıdır. Təəssüf ki, Mətbuat Şurası və artıq ləğv olunmuş KİV-ə Dövlət Dəstəyi Fondu tərəfindən region medialarına diqqət göstərilməmiş, onlarla bağlı hansısa qrant layihələri təklif olunmamışdır. Lakin yeni yaradılan Medianın İnkişafı Agentliyinə ümidlər böyükdür. İnanıram ki, artıq region mediasına xüsusi yanaşılacaq, qrant ayrılan zaman ayrıseçkilik hallarına yol verilməyəcək, həmin media obyektləri ilə bağlı ölkə mətbuatının inkişafı naminə faydalı, aktual layihələr həyata keçiriləcək".

*E.Ağayev əlavə edib ki, bölgədə media orqanının fəaliyyət göstərib, inkişaf etməsi daha çətin və məsuliyyətlidir:* "Region mətbuatı üçün azad reklam bazarı, dayanıqlı maliyyə imkanları yaradılmalıdır. Hesab edirəm ki, xüsusilə Qarabağ bölgəsində təsis olunacaq media orqanlarının əsas fəaliyyətində siyasi təbliğat aparılmalıdır. Qarabağ problemi ilə bağlı daha dolğun və operativ materiallar hazırlanmalıdır. Fikrimcə, agentlik tərəfindən işğaldan azad olunmuş ərazilərimizdə mətbuat orqanları 4 dildə - Azərbaycan, rus, ingilis və erməni dillərində fəaliyyət göstərməsi daha məqsədəuyğun olar. Həmçinin zənnimcə, siyasi mövzulardan savayı turizm, kənd təsərrüfatı və innovasiyalar kimi mövzular da geniş işıqlandırılmalıdır".

**Aynurə Pənahqızı**

# Bir gəncin taleyi ilə oynadılar

## Bundan sonra bəlkə də o valideyn bir ömür boyu vicdan ağrısı ilə yaşayacaq

Sabirabad rayonunda intihar hadisəsi baş verib. Rayonun Cavad kənd sakini, 2001-ci il təvəllüdlü Səmayə Zeynalova özünü yaşadığı evin həyətindəki nar ağacından asıb. S.Zeynalovanın 1 yaşlı oğlu var. Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə sosial şəbəkədə bildirib ki, qız boşanmaq istəsə də, anası buna razı olmayıb:



**"Evləndirdiyimiz övladlarımıza, xüsusən qızlara öncə qanad verib, sonra yuvadan uçurmaq lazımdır"**

"Qız ailəli olduğu dövrdə valideynlərinə həyat yoldaşı, qayınatası, qayınanasının ona mənəvi, psixoloji işgəncə verdiklərini və onu bezdirib intihar həddinə çatdırdıqlarından dəfələrlə şikayət edib, boşanmaq istəyib. Qızın atası onun boşanmasına razılıq verib, amma anası qəti etiraz edib. "Getmisən, dolan, otur, boşanma" deyib. Yeri gəlmişkən, qızın anası ilə oğlanın anası əmiqızlarıdır".

**Bədbəxt hadisəni "Şərq"ə dəyərləndirən tanınmış jurnalist İlhamə Rəsulova bildirib ki, Azərbaycan ailələrinin ən böyük problemi danışa bilməməkdir:** "Bizlər problemlərimizi danışaraq yox, dava edərək, ən yaxşı halda küsərək həll edirik. Həll etmirik, sabahlarımıza getdikcə böyüyən, irinləyən bir yara saxlayırıq. Beynimizə yeridilmiş bir qanun var: hər valideyn övladını xoşbəxt görmək istəyir və toy arzusu ilə yaşayır. Amma xoşəxtlik dediyimiz o məfhum nədir? Onu nədə görürük? Ümumiyyətlə, hər insan mütləq şəkildə ailə qurmalıdırmı? Ərə gedən qıza ata-babalardan miras qalmış o söz niyə deyilməlidir - "O evdən bir də kəfənlə çıxacaqsan".

Ən yanlış ifadə. Halbuki, övladını yola salan ana-ata buna ayıblı bir şey kimi baxıb, toydan öncə "gizlənqaç oynamaq" əvəzinə oturub qarşılıqlı danışa bilərlər. Ata, yaxud ana, evin böyüyü hər kimdirsə, ailəni tərk edən qıza "sənin hər daim güvənəcəyin yuvan var, bunu unutma, çətinliklərin zamanı bil ki, mən yanındayam" deməyi də bacarmalıdır.

Bu, hər səhvində, hər "kapriz"ində hələ ailə nə deməkdir bilməyən gənc qızın ayağının altına daş qoymaq demək deyil. Problemlərinə dəstək vermək, qurulmuş ailənin xətalarını təlafi etmək üçündür. Bütün səylərə rəğmən iki nəfərin bir dam altında birgə yaşayışı onları hansısa vacib səbəbdən məmnun etmir, incidir, əziyyət verirsə, bu əziyyəti ömür boyu sürdürməyin nə mənası var?

Hətta Allah belə boşanmanı bir variant kimi insana təqdim edib. İnsan niyə Allahdan daha çox allahlıq eləmək iddiasına düşməlidir ki, başqasının taleyi üzərində?

Olmursa, ən sivil qaydada ayrılıb ortalıqda uşaq varsa onun özünü üzgün hiss etməməsi, xoşbəxt böyüməsi üçün səy göstərməlidirlər. Bəs, bizdə necədir? Uşaqdan qarşı tərəfə şantaj aləti kimi istifadə edilir, onu göstərməməklə qarşı tərəfi cəzalandırırlar. Və ya bütün qalmaqallar, dava, təhqir o balacanın gözü qarşısında baş verir. Birincisi, uşaq bu travma ilə böyüyür, ikincisi də ailə deyilən şeyin elə bu olduğunu qavrayaraq gələcəkdə özü də şiddətə meyilli ailə başçısına çevrilir".

**İ.Rəsulova vurğulayıb ki, mövcud durumda qız dəfələrlə valideynlərinə vəziyyətinin pis olduğunu deyib:** "Valideyn qohum evliliyinə görə "üz-üzdən utanar" prinsipilə hərəkət edib bəlkə də. Yaxud əmiuşaqlarıyla aralarında problem yaranmasın deyə problem həll etmək əvəzinə əzilən tərəfi susdurub. Bundan sonra bəlkə də bir ömür boyu vicdan ağrısı ilə yaşayacaq o valideyn.

Amma zamanında sadəcə dinləmək, söhbət edib yoluna qoymaq, heç nə alınmırdısa da, boşanmaya razılıq vermək olmazdımı? Hər kəs öz həyatını yaşayacaq və fərqli şəkildə quracaqdı.

Niyə bizim cəmiyyətdə elə düşünürlər ki, boşananlar mütləq əxlaqsız olacaqlar. Kimlərsə onlara pis baxacaq? Namus deyilən məfhum yalnız qadın bədəni il ölçülən bir şeydirmi? Və bir qadın əxlaqlıdırsa, o, əxlaqını ərinə, ailəsindəki kişilərə görə deyil, öz şəxsiyyətinə hörmət edərək qoruyur.

21 yaşında intihar edən həyatından bezmiş gəlinin tay-tuşları hələ universitetə hazırlaşır. Karyera yollarında irəliləyirlər. Onun körpə dünyası hələ formalaşmamış artıq qucağına körpə verilir.

Öz səhvlərini dərk etməyən bir qız başlayır başqa bir insanı yetişdirməyə. Halbuki, hər hansı bir peşəsi, işi, təhsili olmuş olsaydı, öz başını dolandırmaq hünəri olardı. Valideyn despot olmuş olsaydı belə ayrıca yaşayıb həyatını təmin edə bilər, asılı qalmazdı. Hər zaman dediyim sözdür: "Qanadına güvənən quş qonduğu budağın sınmasından qorxmaz". Evləndirdiyimiz övladlarımıza, xüsusən qızlara öncə qanad verib, sonra yuvadan uçurmaq lazımdır".

**Yeganə Bayramova**

# Yeni imkanlar yaranır

## Azərbaycan turizm potensialına İsrailin dəstəyi çox əhəmiyyətlidir



**İsrail Azərbaycanın üçüncü ən böyük ixracat istiqaməti olaraq qalır. Bunu Azərbaycan iqtisadiyyat naziri və Azərbaycan-İsrail Hökumətlərarası Komissiyanın həmsədri Mikayıl Cabbarov bildirib.**

M.Cabbarov əlavə edib ki, Azərbaycan gələn il İsraildə turizm bürosu yaratmaq istəyir: "Gizli deyil ki, ikitərəfli ticarətdə neft və qaz sahəsi mərkəzi yer tutur. Amma bunun daha da genişləndirilməsini istəyirəm. Xüsusən də turizm, kənd təsərrüfatı və aqrotexnika sahəsində əməkdaşlığı genişləndirmək istəyirik. Həmçinin kiber müdafiə, təhsil, su ehtiyatları və səhiyyə sahəsində də əməkdaşlıq etmək istərdik. 2019-cu ildə əsası qoyulan və qısa müddətdə müsbət təsiri olan ikitərəfli iqtisadi əməkdaşlıq forumunun fəaliyyətini yeniləmək niyyətindəyik. Bu baxımdan İsraildə turizm bürosunun açılması da əhəmiyyətli mesaj verəcək. Eynilə texnologiya sahəsində də İsrail ilə əlaqələrin daha da yaxşılaşdırılmasında maraqlıyıq".

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən iqtisadçı-ekspert Natiq Cəfərli bildirib ki, Azərbaycanın gələcəkdə turizm potensialını inkişaf etdirmək üçün kifayət qədər imkanları var.** Ekspert qeyd edib ki, bu sahədə bir çox ölkələrlə, o cümlədən İsraillə əməkdaşlığın olması bu, perspektivlərə müsbət təsir edə biləcək amildir: "Onu da nəzərə almaq lazımdır ki, indiki İsrail ərazisində keçmiş Azərbaycan vətəndaşları və yaxud da Bakı sakinləri kifayət qədərdir, yəni sayları on minlərlədir. Onların da Azərbaycana səfər etməsi, Azərbaycanı yenidən kəşf etmələri belə demək mümkünsə, kifayət qədər perspektivli bir sahədir".

N.Cəfərli əlavə edib ki, bu ölkə ilə gələcəkdə vizaların sadələşdirilməsi ilə bağlı məsələlər də həllini tapa bilər: "Hesab edirəm ki, bundan sonra Azərbaycan turizm potensialına İsrailin dəstəyi və İsrail vətəndaşlarının Azərbaycana səfərlərinin sayının artması yeni imkanlar yaradacaq. Bundan başqa bu, İsraillə Azərbaycan arasında münasibətlərin artan templə inkişaf etməsinə də dəstək olacaq. Çünki, bu turizm bürosunun açılması tək turizm sahəsini deyil, hər iki dövlətin arasında əməkdaşlığının daha da genişləndirilməsinin işarəsidir".

**Aynurə**

# Gələcəkdə təhsil sistemində məktəb tamamilə ləğv edilə bilər

## Mütəxəssislər gələcəyin təhsil quruluşu üçün 4 fərqli senari hazırlamaqdadırlar

Distant təhsilin uzunmüddətli davam etməsi imkanı gələcəklə bağlı proqnozları da dəyişdirib. "Şərq" xarici mətbuata istinadən xəbər verir ki, texnoloji əsaslı təhsil sistemləri, onlayn dərslər və məsafənin yaxın gələcəkdə böyük və köklü dəyişikliklərə səbəb olacağı ehtimalı qaçılmazdır. Hətta mütəxəssislər gələcəyin təhsil quruluşu üçün 4 fərqli senari hazırlamaqdadırlar.

1. Rəsmi təhsil sistemini genişləndirərək, texnologiya sayəsində fərdi təhsil anlayışı ortaya çıxacaq və məktəb bir quruluş olaraq qalacaq.

2. Ənənəvi məktəb sistemini yıxaraq daha sosial bir quruluş formalaşacaq və təhsil fərdlərə veriləcək. Öyrənmə daha çevik, subyektiv və dəyişkən bir şəkildə təşkil ediləcək və texnologiya infrastrukturu üzərində qurulacaq.

3. Məktəblər bina olaraq qalacaq. Tədris yolu dəyişəcək və vətəndaş cəmiyyəti təhsilin bir hissəsinə çevriləcək.

4. Təhsil hər zaman və hər yerdə əlçatan olacaq. Rəsmi və qeyri-rəsmi tədris sistemləri qarışacaq və öyrənmək heç vaxt dayanmaz bir vəziyyətə dönəcək.



Təbii ki, bu gün istifadə olunan rəqəmsallaşdırma əslində yalnız bir təqdimat formasıdır, lakin texnologiyanın başqa nə yeniliklər yaradacağına dair bir məhdudiyyət yoxdur.

Mütəxəssislər hesab edir ki, təhsili yalnız oxumaq, yazmaq və hesablamaqla öyrənməkdənsə, düşünməyi inkişaf etdirmək, danışmaq və ünsiyyət qurmaq kimi əsaslandıran akademik tədqiqatların inkişaf etdirilməsinə ehtiyac var. Onlar qeyd edir ki, tələbələri kitab və dəftərlərlə öyrədə bilərsiniz, ancaq yaradıcılıqlarının üzərində işləyərək daha asan dərs tədris edə bilərsiniz. Bu da nəticədə onların daha qeyri-adi üstünlüklərinin ortaya çıxmasına imkan yarada bilər. Gələcəkdə təhsil sistemində məktəb tamamilə ləğv edilə bilər. Çünki süni zəka və internet üzərində qurulan rəqəmsal bir infrastruktur sayəsində bilik və öyrənmə yolu tamamilə dəyişir. Bacarıq və davranışlar isə ani hala gəlir.

**Aynurə Pənahqızı**

# Ləkə varsa, silinməlidir

## “Televiziyalar millətin elektron güzgüsü olmalıdır”



Ötən günlərdə Zaur Baxşəliyevin "Bizimlərsən" verilişi Milli Televiziya və Radio Şurasının qərarı ilə 1 günlük bağlandı və ATV cərimələndi. Buna səbəb Bərdə rayonunda bir neçə gün öncə 10 yaşlı uşağın cinsi orqanını kəsən 40 yaşlı Aidə Əzizovanın çıxışı olub.

**Aydın Xan Əbilov:** *“Fikrimcə, MTRŞ-nin qərarı yüngül olub, onu bir az da ağırlaşdırmaq lazım idi. Digər kanallar da baxıb belə mənfi hadisələri ictimai əhəmiyyət kəsb edirmiş kimi insanlara çatdırmasınlar”*

Bu məsələ sosial şəbəkələrdə müzakirələrə səbəb oldu. Zaur Baxşəliyevi dəstəkləyənlər də var, qınayanlar da. Sənət dünyasının tanınan nümayəndələri isə Zaurun yanında oldular. Aparıcının nöqsanı nə qədər böyük olsa da, şou əhli onun tərəfini tutdu.

**Mövzu ilə bağlı ”Şərq”ə danışan Vətəndaş Cəmiyyət Alyansı TŞ rəhbəri, Yeni Yazarlar və Sənətçilər İB sədri, yazıçı-kulturoloq Aydın Xan Əbilov deyib ki, televiziyadakı bu kimi mənfi hallara qarşı ağır cəzaların tətbiq edilməsinin tərəfindədir:** ”Çox güman ki, həmin qadının psixoloji problemləri var. Üç yaşlı qızı ilə, 10 yaşlı oğlan uşağı arasında hansısa bir hadisə olmasını cəmiyyətə bu şəkildə çatdıran insandan normal hal gözləyə bilmərik. Onun özü cinayət törədib. Cinayət məcəlləsində uşaqlarla bağlı qadağalar mövcuddur. Ümumiyyətlə, bir uşağın cinayət işində onun fotosunu, adını yayımlamaq olmaz. O qadın isə əməlini bir kanalda səsləndirib. Fikrimcə, MTRŞ-nin qərarı yüngül olub, onu bir az da ağırlaşdırmaq lazım idi. Digər kanallar da baxıb belə mənfi hadisələri ictimai əhəmiyyət kəsb edirmiş kimi insanlara çatdırmasınlar. Həmin şəxs 10 yaşlı oğlan uşağının cinsiyyət orqanını kəsdiyini rahatca danışa bilir və bunu da televiziyanın qəhrəmanı kimi bizə sırıyırlar. Belə anormal adamlardan yenə var. Beləliklə iki uşaq oynayarkən, biri o birini bilmədən yıxarsa, əlinə bıçaq alıb ona zərər yetirəcək. Təbii ki, bu, bütün mental dəyərlərə ziddir və qanunvericiliyə qarşı bir olaydır. Fərq etmir hansı kanaldır, belə hal baş verirsə, bağlanmalıdır, cəzalandırılmalıdır”.

**Ekspertin fikrincə, belə verilişlərin fəaliyyəti dayandırılmalıdır:** ”Bu barədə fikirlərimizi bildirmişik. Ona görə həmin kanallar bizə qadağalar qoyub. Lakin onlar bizim dostlarımızdır və həmin səhvləri etməməlidirlər. Məncə, televiziya millətin elektron güzgüsü olmalıdır. Əgər ləkə varsa, silinməlidir. Niyə 44 günlük Vətən müharibəsində iştirak edən qazilərimizin problemləri işıqlandırılmır, onları incidən məmurlar tənqid edilmir? Belə bir qadını isə ”qəhrəman” kimi göstərirlər. Sosial verilişlərin gündüz, uşaqların yatmadığı bir vaxtda efirə verilməsi düzgün deyil. Pandemiya dövrü ilə əlaqədar xalqın psixoloji vəziyyəti gərgindir. Belə bir zamanda həmin proqramların yayımlanması qəbuledilməzdir. MTRŞ ictimai liderləri, QHT rəhbərlərini, mədəniyyət xadimlərini və bizim kimi ekspertləri bir yerə yığıb müzakirə etməlidir. Həm də MTRŞ-nin nəzdində də ictimai şura olmalıdır. Həm nəzarətedici, həm də MTRŞ-yə belə məsələlərdə köməkçi olarlar. Beləliklə bu tipli hadisələrdə dövlətlə birgə mübarizə apararlar”.

**Samirə Ərəblinski**

## Evdə deyirlər ki, sənə arıqlıq yaraşmır

Şəbnəm Tovuzlu: “Həyat yoldaşım da məni belə bəyənir. Hətta bundan da kök sevir”



**Müğənnilər Nazənin Salayeva və Şəbnəm Tovuzlu ”Evdəkilərə salam” verilişində dostluqlarından bəhs ediblər.**

”Şərq” xəbər verir ki, Nazənin xanım Şəbnəmin insanları dinləməyi bacardığını söyləyib: ”Başına nə oyunlar gəlməyib ki... Yazıq qız... Amma çox güclü xanımdır. Ona demişəm ki, başını aşağı sal, sən oxu. Çünki insanlar səni sevir, səsin də gözəldir. Ən əsası Şəbnəmin kompleksi yoxdur”.

*Bu zaman aparıcı söhbəti dəyişərək Şəbnəmə bir vaxt arıqlayıb, sonra yenidən kökəlməsi ilə bağlı sual verib. Müğənni isə layihə üçün arıqladığını deyib:* ”Sonra yenidən kilo aldım. Əslində evdəkilər deyirlər ki, sənə arıqlıq yaraşmır. Həyat yoldaşım da məni belə bəyənir. Hətta bundan da kök sevir”.

## Zaur Kamalın da Türkiyədə evi var

Nazənin bütün sirləri açdı

**Müğənni Nazənin Salayeva Türkiyədə ev alıb.**

”Şərq” xəbər verir ki, bu barədə o, ”Həmin Zaur” verilişində danışıb. O, mövzu ilə bağlı bunları söyləyib: ”İndi hamı orada ev alır. Türkiyədə evlər çox ucuzdur. Çox adamın orada mənzili var”.

*Aparıcı Zaur Kamal isə müğənnilər Nadir Qafarzadənin və Şəbnəm Tovuzlunun da qardaş ölkədə evinin olduğunu deyib.*

**Samirə**



## Anarın saçı ağarıb

Röya keçmiş ərinin fotosunu görüb ağlayıb

**Xalq artisti Röya Ayxan ”Dəyişən cavab” verilişində qonaq olarkən öz həyatı və sənəti ilə bağlı açıqlamalar verib.**

“Şərq”in məlumatına görə, stilist Anar Ağakişiyev müğənniyə ”Şayiələr yayıldı ki, siz keçmiş qayınananız ilə Anar Cəlilovu birinci xanımından ayırmaq üçün saziş imzalamısınız. Amma siz cavabını verdiniz” deyib. Röya isə eks-qayınanasının yaxşı insan olduğunu söyləyib: ”Özümə onun kimi qayınana olmağı arzu edirəm. Ayrılanda ən çox ondan utanmışam ki, necə deyim bağışlayın. Onların ailəsi bir-birilə sıx əlaqəlidir. Bizim kimi deyil.

Nə qədər etsəm də, bir yerə yığa bilmirəm. Bir tərəfdən çox xoşbəxtəm ki, elə ailədən uşaq dünyaya gətirmişəm. Mən Anarı çox sevmişəm, bəlkə hələ də onu sevirəm.

Ötən günlərdə Anar Hüseynlə futbola gedib, şəkil çəkdiriblər. Dedim, gətir baxım. Gördüm, Anarın saçı ağarıb. O mənə çox pis təsir elədi, ağladım. Nə olursa olsun, istəmirsən sevdiyin qocalsın. Adam sevəndə hər şeydən əl çəkə bilər. Ayrılanda nifrət bəsləmək lazım deyil. Mənim həyat yoldaşım çox gözəl insan olub. Digər situasiyaları bilmirəm. Məsələn, valideynlərim boşananda anam pəncərəyə ”reşotka” vurmuşdu ki, atam bizi görə bilməsin. Atama olan qəzəbini bizi ona göstərməməklə yaşadı. Amma görürsən həyat necə dəyişdi. Mən qazandığım pulla ilk evi atama aldım”.

**Samirə**

# “Yanımdan yel olub ötə bilməzlər”

## Elza Roza Zərgərliyə “od püskürdü”

**”Görürəm efirdə adım çəkilir. Mənim haqqımda danışmayın. Fərqi yoxdur, yaxşı, ya pis mənada, məndən bəhs etməyin. Mənim kimi sənətkarlar toxunulmazdır. Bilsin ki, onu şərböhtanlarına görə məhkəməyə verəcəm”.**



### “Üzlərini o qədər dartdırıblar ki, ağılları da dartınıb”

”Şərq” xəbər verir ki, bu sözləri ”ATV maqazin onlarla”ya açıqlamasında müğənni-bəstəkar Elza Seyidcahan Roza Zərgərli haqqında deyib. O, müğənniyə ”od püskürüb”.

”Onlar sənətdə deyil, bütün günü cərrahi əməliyyatlardadırlar. Üzlərini o qədər dartdırıblar ki, ağılları da dartınıb. Bunlar üzü götürüb başa tikirlər, yəqin ağıllarını da başlarının arxasına tikiblər. Əməliyyatlara gedirlər ki, efirdə onlardan danışsınlar. Görürlər gündəmdə deyillər, fikirləşirlər ki, neyləyək. Deyirlər, Elza Seyidcahanın adını çəkək. Ayıb deyil xalqın sənətkarını təhqir edirsiniz? Çünki sənətdən xəbəriniz yoxdur. Kiminsə pulu ilə gəlib bu caməyə daxil olmusunuz, özünüzü xeyriyyəçi kimi göstərməyə çalışırsınız. Kimlərəsə deyirsiniz ki, toylara çağırın məni, pul atacam. Gedirlər pul yazılırlar ki, sənət adamlarının arasında olsunlar. Dedikləriniz Elzanın yanından yel olub ötə bilməz. Elza kim, siz kim? Zamanında onun kitab təqdimatlarına, tədbirlərinə gedərək səhv etmişəm. Ona görə mən sizi məhkəməyə versəm, təzminat ödəməli olacaqsınız”.

**E.Seyidcahan həmçinin R.Zərgərlinin müğənni Nərmin Kərimbəyova haqqında dediyi ”Elə bilirəm mən qazanıram, o yeyir. O qız mənə yapışmır” sözlərinə də münasibət bildirib:** ”44 günlük müharibədə ”Atəş” adlı mahnını oxuyan, Hökumə Nəcəfzadənin nəvəsi Nərmin Kərimbəyovaya deyir, o mənə çatmır. Əlbəttə, çatmaz. Gərək Nərmin də sifətini dartdırsın, tikdirsin ki, sən onu tanıyasan. Onun rəqsi, performansı, piano ifaları, ailəsi, gül kimi əri övladı var”.

Əməkdar artist son olaraq R.Zərgərliyə borcunun olub-olmadığı barədə danışıb: ”Kimsə mənə borc verə bilməz. Həmişə haqqımı qazanmışam. Borclu qala bilmərəm, əksinə, artıqlaması ilə pulunu qaytararam”.

Qeyd edək ki, bir müddət öncə Roza Zərgərli ”ATV maqazin onlarla” proqramında Seyidcahanın ünvanına sərt sözlər deyib. O, bəstəkarın ona borclu olduğunu, lakin illərdir qaytarmadığını söyləyib.

**Samirə Ərəblinski**

# Bir stəkan ayran!

## Koronavirusun dərmanı tapıldı



Alimlər ayranın - kefir (mayalanmış turş süd) koronaviusdan qorunmada böyük təsirə malik olduğunu sübut etməyə çalışır. Hazırda bununla bağlı Rusiyanın Sankt-Peterburq şəhərindəki Eksperimental Təbabət İnstitutunda elmi araşdırmalar aparılır. Bu xəbəri ictimaiyyətə Rusiya Elmlər Akademiyasının vitse-prezidenti Vladimir Çukonin verib.

*"Şərq" "RİA Novosti"yə istinadən bildirir ki, V.Çukonin kefir mənşəli vaksinin koronavirusdan qorunmada 60 faiz effektli olacağını deyib:* "İnstitutun alimləri tərəfindən belə bir preparat hazırlanıb. Hazırda preparat klinik tədqiqatlaradək olan sonuncu mərhələdədir. Güman edilir ki, koronvirusdan qorunmaq üçün iynələrə, dərmanlara artıq ehtiyac qalmayacaq. Sadəcə, turş süd məhsulunu içməklə orqanizmin faydalı bakteriyalarla təminatı mümün olacaq. Kefirin tərkibindəki faydalı bakteriyalar xüsusi olaraq yaradılan probiotiklərdir ki, onlar orqanizmi koronavirusdakı təhlükəli zülalı "tanımağa" imkan verir". V.Çukoninin sözlərinə görə, kefir mənşəli vaksinin tətbiqindən sonra orqanizmdə A tipinə məxsus immunoqlobinlər əmələ gəlir, hansı ki, selikli qişanı viruslardan qoruyurlar. Vitse-prezident deyib ki, belə bir vaksin hazırlamaq digərlərindən daha asandır. Preparat koronavirusa qarşı digər vaksinlərlə peyvənd olunmuş, həmçinin aşağı faizli anticismlərlə yoluxmuş insanlarda immunitet yaranmasına kömək edə bilər.

Kefir - mayalanmış süd zatən türk və Qafqaz xalqlarının, o cümlədən Azərbaycan türklərinin də qida rasionunda geniş yer tutan ağartı məhsullarından biridir. Qatığı su ilə açıb doğranmış xiyar, müxtəlif göyərtilər, bir az da duz əlavə etməklə meyxoş bir içəcək alınır. Süd məhsullarının orqanizmə faydaları onsuz da bəllidir. Süd məhsulları arasında qatıq, kefir (ayran) xüsusi yer tutur. Amma mütəxəssislər kefirin qatığa nisbətən daha faydalı olduğunu bildirir.

Kefir fermentasiya olunmuş, yəni mayalanmış süddür, inək, qoyun və keçi südündən hazırlanır. Turşməzə dada malikdir. Tərkibində bakteriyaların (faydalı) sayı süddəkindən artıq olduğuna görə orqanizmə daha çox xeyri var. Kefir bütünlüklə probiotik, mineral və vitamin mənbəyidir. Hər gün 0,5 litr kefir içmək orqanizmi zərərli bakteriyalara qarşı möhkəmləndirər. Kefirlə qatığın fərqi bundadır ki, qatıq probiotik istehsalına yardım edən mühiti yaradır, kefir isə probiotikin özüdür. Qatığın çox yeyilməsi mədə divarını qıcıqlandırır, kefir isə orqanizmdə hətta mədə xəstəliklərinin törədicisi olan helkobakter pylorini müalicə edir. Deməli, koronavirusa yenə öz məhsulumuzla qalib gələ bilərik.

**Məlahət Rzayeva**

# DNA testi etdirib

## Məryəm Üzərlinin rus əsilli olduğu üzə çıxıb

*(Əvvəli səh.16)*



**Rus əlifbasının oxuya və yaza bilir. Lakin gündəlik bu dili işlətmədiyindən sözləri tez-tez unudur.**

Belə zamanlarda rus rəfiqlərinin ona sözləri xatırlatdığını deyir. Məlumdur ki, Məryəm Üzərli Türkiyədə, sonra isə bir çox ölkələrdə məhz Hürrəm Sultan roluna görə tanındı.

Tarixdən Hürrəm Sultanın slavyan əsilli olduğu bəllidir. Bu mənada rol ifaçısının kökü ilə canlandırdığı obrazın əslinin, hardasa, eyni olduğunun üzə çıxması da maraqlı tarixi faktdır. Məlum olan həm də budur ki, Məryəm Üzərli "tükənmişlik sindromu" ilə bağlı Möhtəşəm yüz il" dizisinin sonrakı sezonlarında görünmədi, heyətdən ayrıldı. M.Üzərli türk aktyor Can Ateşlə evləndi və bir qız övladları dünyaya gəldi. Aktrisanın amerikalı sevgilisindən də bir qız övladı var. Hər iki övladına M.Üzərli özü baxır.

**Məlahət**

# Koronavirus iki canı birdən aldı

## Əvvəl bətndəki körpə, az sonra ana öldü



**Türkiyənin İstanbul şəhərində koronavirus səbəbindən növbəti faciə yaşanıb.** Bu barədə "Şərq" "Posta"ya istinadən xəbər verir. Bildirilir ki, 7 aylıq hamilə Bilge Karabulut 15 gündür müalicə olunduğu xəstəxanada COVİD-19-a məğlub olub. Əvvəlcə qadının bətnindəki uşaq ölüb. Bir saat sonra həkimlərin bütün səylərinə rəğmən, ana dünyasını dəyişib. O, tələbələri arasında çox sevilən ingilis dili müəllimi idi.

**Kənan**

# "Google"dən öyrəndi

## Hekayəsi baxılma rekordu qırdı



**Təsəvvür edə bilirsiniz? Ər şəhərin körpüsünə gedəcək yolu "Google Xəritə" sistemində axtarışa verir. "Xəritə"də axtardığı küçə ilə birgə xanımını da tapır. Həm də başqasının qucağında!**

*"Şərq" "Ahaber"ə istinadən bildirir ki, hadisə Peruda yaşanıb. Perunun paytaxtı Limada yaşayan bir nəfər onu körpüyə aparacaq ən qısa və rahat yolu "Google Xəritə" sistemi ilə axtarışa verib.* Xəritənin göstərdiyi küçə qarşısına çıxdıqda isə həmin küçədə bir qadınla kişinin çox səmimi şəkildə skamyada əyləşmiş fotosunu görür. Foto marağına səbəb olur, diqqətlə baxdıqda fotodakı qadının özbəöz həyat yoldaşı olduğunu anlayıb dəhşətə gəlir. Fotoda görünür ki, qadının yanındakı kişi başını xanımının dizləri üstə qoyub. Həyat yoldaşına xəyanət edən qadının fotoları və bu hekayə feysbukda paylaşım rekordu qırıb. Ümumiyyətlə, son zamanlar "Google"də paylaşılan küçə fotolarında əks olunmuş qəribə mənzələr dünyanın diqqətini çəkir. Onlardan biri də Peruda baş vermiş bu xəyanət hadisəsidir. Maraqlıdır ki, bu hadisə - qadının həyat yoldaşına xəyanəti 2013-cü ildə baş verib. Kişi isə bundan illər sonra "Google Xəritə" sistemi vasitəsilə xəbər tutub. Yeri gəlmişkən, xəyanət ortaya çıxınca ər və arvad boşanıblar.

**Məlahət**

# Cəzaları sərtləşdirmək çıxış yolu deyil



## Siqaretə qurşanan gəncləri ailədəki mühit yetişdirir

**Uşaqlara siqaret satan 1568 şəxs məsuliyyətə cəlb olunub. Qeyd edilən şəxslər də daxil olmaqla övladlarının təlim-tərbiyəsi ilə bağlı üzərinə düşən vəzifələri yerinə yetirməyən 120 valideyn barəsində inzibati tənbeh tədbirləri görülüb.**

Bununla yanaşı müvafiq problemin aradan qaldırılması, uşaqlara qayğı və yardımın göstərilməsi məqsədilə yerli icra hakimiyyətləri yanında komissiyalara, qəyyumluq və himayə orqanlarına 450 material göndərilib.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən "Altay" Sosial-Araşdırmalar Mərkəzinin rəhbəri Elçin Bayramlı bildirib ki, bu sahədə ölkəmizdə qadağalar və cəzalar sərtləşdirilsə də faydası olmayacaq:** "Çünki artıq cəmiyyətimiz elə laqeyd hala gəlib ki, bir yolla bunu edəcəklər. Bundan başqa uşaq və yeniyetmələr tanış gənclərə və hətta orta yaşlılara pul verib onlara siqaret almasını xahiş edəcək. Çünki biz qanun pozmaqdan, qaydalara əməl etməməkdən həzz alan və bununla fəxr edən cəmiyyətik".

Uşaq və yeniyetmələrin tərbiyəsiz və aqressiv böyüməsinə gəldikdə, ekspert qeyd edib ki, bu problemin sadə həll yolu var: "Uşaq və ya yeniyetmə hər hansı bir cinayət və ya qanun pozuntusu törətdikdə valideyni dərhal həbs edilməlidir. Həmçinin dövlət, ictimai və şəxsi əmlaka vurduğu zərərin ödənilməsi təmin edilməlidir. Bunu ödəməyə pulu yoxdursa, əmlakı müsadirə edilməlidir. Bu, valideynləri ağıllı olmağa vadar edə bilər. Onlar ağıllı olduqda uşaqlarına məcburən tərbiyə verməli olacaqlar".

**Aynurə Pənahqızı**


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**



Baş redaktor: **Akif Aşırlı**

Baş redaktorun ı müavini: **Yusif Nəzərli**

Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı

**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535

**www.sherg.az**

e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.

**Telefon: 447-32-41 538-44-50, internet 538-44-15,**

**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**

SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111 Kod 200112 M/H AZ37NABZ01350100000000001944

VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 702





## Anasından ayrı düşüb

### Ayı balası itlərlə bir yerdə qalır

**Türkiyənin Sakarya şəhərinin Karasu bölgəsində bir evə girən ayı balası Karasu İtlərin Reabilitasiya Mərkəzində mühafizə altına alınıb.**

"Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, Karasu bələdiyyə başqanı İsak Sarı və başqan yardımçısı İsmayıl Karakaş mərkəzi ziyarət edib. Mərkəz əməkdaşları onlara ayı balasının səhhəti ilə bağlı məlumat verib. İ.Sarı mediaya bildirib ki, anasından ayrı düşmüş bala itlərin hücumundan qorxub qaçaraq əyalət mərkəzinə gəlib. Ayı balası müayinə ediləcək, anası tapılarsa, onun yanına aparılacaq. Yox əgər ana ayı tapılmasa, bala Sakarya Təbiəti Qoruma və Milli Parklar şöbə müdirliyinə təslim ediləcək. Mərkəzin veterinarı Həmzə Ayar isə bildirib ki, ayı balası bir gecə burda "qonaq qalacaq".

**Məlahət**

## Bill Qeyts açıqladı

### 2021-ci ilin sonlarında koronavirusun bitməsi mümkün deyil



**COVİD-19-la yaxından maraqlanan və ən çox danışılan adlarından biri olan Bill Qeyts epidemiyanın nə vaxt bitəcəyini açıqlayıb. Qeytsin təxminlərinə görə, 2021-ci ilin sonlarında koronavirusun bitməsi mümkün deyil.**

"Şərq" türk mediasına istinadən bildirir ki, B.Qeytsə görə, 2022-ci ilin sonunda bütün dünyada həyat normallaşacaq.

*Qeyd edək ki, Bil Qeyts və həyat yoldaşı Melinda Qeyts tərəfindən qurulan "Qeyts Fondu" COVİD-19 ilə mübarizəyə milyonlarla dollar ayırıb.*

**Yeganə**

## Dünyada ilk yaşandı

### Havada hovuz tikildi



**İngiltərənin paytaxtı Londonda dünyanın ilk şəffaf "göy hovuzu"u tikilib. "Şərq" "Ntv.com.tr"yə istinadla bildirir ki, hovuz mayın 19-da istifadəyə veriləcək.**

Londonun cənubundakı "Nine Elms" bölgəsində 10 mərtəbə yüksəklikdə, iki göydələn arasında yerləşən şəffaf hovuzun uzunluğu 25 metr, dərinliyi 3 metrdir.

Yerdən 35 metr yüksəklikdə tikilmiş hovuz insanlara "havada üzmək" hissi verməyi hədəfləyir. İnsanlar 35 metr aşağıya baxanda özlərini akvariumdaymış kimi hiss edəcəklər.

**Yeganə**



# DNA testi etdirib

### Məryəm Üzərlinin rus əsilli olduğu üzə çıxıb



**"Möhtəşəm Yüz il"in Hürrəm Sultanı - Məryəm Üzərlinin rus əsilli olduğu üzə çıxıb. Atası türk, anası isə alman olan aktrisa ötən il DNA testi etdirib.** "Milliyet.com"un yazdığına görə, Üzərli açıqlamasında "Test sonuclarına əsasən yüzdə 6 - 8 rus kökənli olduğum ortaya çıxdı. Buna çox təəccübləndim. Anamdan, atamdan soruşdum və ailəmizin keçmişi ilə bağlı bir çox şeyləri öyrəndim", deyib. Üzərli "əslində, insanın haradan gəldiyi, harada doğduğu, dərisinin hansı rəngdə olmasının heç bir önəmi yoxdur. Mənim üçün hər kəs eynidir. Özümü və hər kəsi dünya insanı olaraq görürəm", söyləyib. Məryəm Üzərli məktəb illərində rus dili dərsi alıb.





(Davamı səh.15)

## Evin döşəməsindən xəzinə çıxdı

### Xəzinə ovçusu olan Ville metal dedektoru ilə evi araşdırıb



**Ev uzun zamandır orada yaşayan bir cütlüyə məxsus idi. Hadisə ABŞ-ın Massaçuests əyalətində baş verib.**

"Şərq"in "Milliyet.com"a istinadən xəbərinə görə, cütlük ölmədən əvvəl evi yaxın qohumuna bağışlayıb.

Karen adlı qohum qızı evi satmağı planlaşdırırdı. Lakin evin döşəməsində saxlanan külli miqdarda pul haqqında eşitdiyi məlumatı araşdırmadan satmaq istəmədi.

Qadın əvvəlcə divarları və döşəmə taxtalarını araşdırmaq üçün bir nəfər çağırsa da, bir işə yaramayıb. Daha sonra itirilmiş qiymətli əşyaları tapmaqda "dedektor" olan Keyt Ville haqqında eşidib. Ville, Massaçuests ziyarətini "YouTube" kanalında yayımlamaq üçün çəkdiyi görüntüləri ora yerləşdirib. Xəzinə ovçusu olan Ville metal dedektoru ilə evi araşdırıb.

Axtarış aparan Ville başqalarının nəzərdən qaçırdığı bir şeyi görüb: döşəmə taxtaların arasından qəribə vızıltı səsi gəlirdi. Bu səs Villenin şübhələrini oyatmaq üçün kifayət idi, ona görə də döşəmənin altına endoskop kamerası qoydu və ətrafa nəzər yetirdi. Sonda saxlanılmış xəzinə dəmir qutu tapılıb.

Pullar 1930-1950-ci illərin 46 min dollar dəyərində olan və hər biri 500 dollarlıq paketlərə yığılıb. Məbləğin hazırda 400 min dollara bərabər olduğu deyilir.

**Villeni işə götürən Karen adlı qadın bu sözləri deyib:**

"Nəhayət ki, pulların tapıldığına sevindim. Xəzinə ovunun sonuna gəldik".

Qadın bundan sonra evi satışa çıxaracağını qeyd edib.

**Yeganə**

## Hələ üç il var

### "Apple" avtomobili 2024-cü ildən tez buraxılmayacaq



**"Apple" avtomobilinin təqdimat tarixi açıqlanıb. "Şərq" xarici mətbuata istinadən xəbər verir ki, bu barədə "Wedbush" şirkətinin analitiki Deniel Ayvs "CNBC" və telekanalına müsahibədə bildirib.**

Mütəxəssisin sözlərinə görə, ilk "Apple" avtomobili 2024-cü ildən tez buraxılmayacaq. Çünki şirkətə istehsalı sıfırdan qurmaq üçün vaxt lazımdır. Analitikin fikrincə, "Apple" yayda sürücüsüz elektromobil layihəsinin tədqimatını keçirərək avtomobil bazarına daxil olmasını bəyan edə bilər. "Apple Car" avtomobilinin anonsu yaxın üç-altı ay ərzində olacaq.

*Qeyd edək ki, həmin avtomobillər sürücüsüz idarə olunacaq.*

**Aynurə**